## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİ TARO KONONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Yaponiyanın xarici işlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Azərbaycana səfərindən məmnunluq hissi keçirdiyini deyən Yaponiyanın xarici işlər naziri Taro Kono ölkələrimiz arasında...



Bax səh. 2

## TÜRKDİLLİ DÖVLƏTLƏR ARASINDA ƏMƏKDAŞLIQ MÜNASİBƏTLƏRİ REGİONAL VƏ BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYƏ STRATEJİ TÖHFƏLƏR VERİR

*Prezident İlham Əliyev: Bizim əlaqələrimiz siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir və biz bütün istiqamətlər üzrə gözəl nəticələr görürük*

Müasir dövrdə dünya siyasəti və beynəlxalq münasibətlər sistemi olduqca mürəkkəb xarakterə malikdir...



Bax səh. 3



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 06 sentyabr 2018-ci il, cümə axşamı / № 167 (5294). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiyaya rəsmi səfərə gedib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Xorvatiya Respublikasına rəsmi səfərə gedib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Zaqreb şəhərinin "Franyo Tucman" aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

"Franyo Tucman" aeroportunda Azərbaycan Prezidenti İlham Əliyevi Xorvatiya Prezidenti ofisinin rəhbəri xanım Anamariya Kiriniç və digər rəsmi şəxslər qarşılayıblar.



## Prezidentin iş günü

Prezident İlham Əliyev Esvatininin Kralı Əlahəzrət III Msvatiyə təbrik məktubu göndərib.

❖ ❖ ❖

Prezident İlham Əliyev Pakistan İslam Respublikasının yeni seçilmiş Prezidenti Arif Alviyə təbrik məktubu göndərib.

## Regionlarda aqrar bölmənin gəlirli sahəsi olan üzümçülük yenidən inkişaf etdirilir

Ölkəmizdə aqrar sahənin dinamik inkişafının təmin olunması həyata keçirilən inkişaf konsepsiyasının mühüm istiqamətlərindən birini təşkil edir. Kənd təsərrüfatında davamlı inkişafa nail olmaq həm iqtisadi, həm də ciddi sosial...



Bax səh. 8

## Azərbaycanın Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Rumıniyada bir sıra görüşlər keçirib

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfovun rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 3-dən 5-dək Rumıniyada səfərdə olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Rumıniya Baş nazirinin strateji tərəfdaşlığın həyata keçirilməsi üzrə müavini Ana Birçal, xarici işlər naziri Teodor Meleşkanu ilə görüşlər keçirilib, nazir müavini Danuts Sebastian Nekulaesku ilə Azərbaycan və Rumıniya Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb. Görüşlərdə iki ölkə arasında münasibətlərin dərin tarixi köklərə və əməkdaşlıq-tərəfdaşlıq ənənələrinə əsaslandığı, bu əlaqələrin bu gün də uğurla genişləndirilməsi və dərinləşdirilməsi məsələləri müzakirə olunub. Həmçinin ölkələrimizin iktirəfli və çoxtərəfli müstəvidə də fəal və səmərəli əməkdaşlıq etdikləri bildirilib. Söhbət zamanı Rumıniyanın Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk ölkələrdən olduğu qeyd edilib. Ötən dövrdə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatmasının hər iki ölkənin bu istiqamətdə əzmkar və səmərəli fəaliyyətinin..

Bax səh. 3



## AZƏRBAYCANIN BAŞ NAZİRİ YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞÜB

Sentyabrın 5-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov Yaponiyanın xarici işlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Baş nazir Novruz Məmmədov Azərbaycan ilə Yaponiya...

Bax səh. 2

## PREZİDENT İLHAM ƏLİYEVİN RUSİYAYA SƏFƏRİ İKİ ÖLKƏ ARASINDA MÜNASİBƏTLƏRİN İNKİŞAFINA YENİ TƏKAN VERƏCƏK

*Ekspertlər hesab edirlər ki, Azərbaycan ilə Rusiya arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri yerli və beynəlxalq medianın diqqət mərkəzindədir. Məlumdur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri formalaşdırıb. Regionda sabitləşdirici aktor kimi çıxış edən Azərbaycan, eyni zamanda, beynəlxalq miqyasda əməkdaşlıq və təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirir. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sistemində yeni və daha mütərəqqi...

Bax səh. 6



## YAPONİYA AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİNİ DAHA DA İNKİŞAF ETDİRMƏK NİYYƏTİNDƏDİR

Xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə rəsmi səfərdə olan Yaponiyanın xarici işlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, nazir Elmar Məmmədyarov iki ölkə arasında əməkdaşlığın inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin xüsusi əhəmiyyətə...

Bax səh. 2

## Azərbaycan Prezidentinin Rusiyaya rəsmi səfəri ölkələrimizin əməkdaşlığının bütün istiqamətlərdə inkişafına mühüm töhfə verəcək



Xəbər verildiyi kimi, sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına...

Bax səh. 4

## Azərbaycanın fövqəladə hallar naziri Polşada səfərdə olub

Fövqəladə hallar naziri, Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının həmsədri Kəmaləddin...



Bax səh. 5

## "Aşura" mərasimlərində ənənəvilik və müasirlik prinsiplərinə riayət olunmalıdır

Sentyabrın 5-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Qafqaz Müsəlmanları İdarəsi (QMİ), Lənkəran Şəhər və Masallı Rayon İcra...



Bax səh. 5

## Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Astanada keçirilən beynəlxalq konfransda çıxış edib

Qazaxıstanın Astana şəhərində "Əfqanıstanda qadınların hüquq və imkanlarının genişləndirilməsi"...



Bax səh. 6

## Kənd təsərrüfatı naziri Azərbaycan Sahibkarlar Konfederasiyasının nümayəndə heyəti ilə görüşüb

Kənd təsərrüfatı naziri İnam Kərimov Azərbaycan Sahibkarlar Konfederasiyasının (ASK) nümayəndə...



Bax səh. 5

# Azərbaycan Prezidenti İlham Əliyev Yaponiyanın xarici işlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Yaponiyanın xarici işlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycana səfərindən məmnunluq hissi keçirdiyini deyən Yaponiyanın xarici işlər naziri Taro Kono ölkələrimiz arasında münasibətlərin yaxşı səviyyədə olduğunu qeyd edib və əlaqələrimizin daha da inkişaf etdirilməsinə ümidvar olduğunu bildirib. Taro Kono Yaponiyanın "İtoçu" və "İnpeks" şirkətlərinin uzun illər "Azəri-Çıraq-Günəşli" (AÇQ) və Bakı-Tbilisi-Ceyhan (BTC) layihələrində pay sahibi olduqlarını vurğulayıb, AÇQ üzrə müqavilənin müddətinin 2050-ci ilə qədər uzadılmasının önəmini qeyd edib və bu əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini bildirib. Nazir daha sonra deyib ki, Yaponiya iki ölkə arasında birbaşa aviareyslərin açılmasında maraqlıdır və bu, turizm sahəsində əlaqələrin inkişafı baxımından böyük əhəmiyyət daşıyır.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin çox uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı bu əlaqələrin siyasi, iqtisadi və digər sahələri əhatə etdiyini vurğulayıb. Prezident İlham Əliyev qeyd edib ki, əməkdaşlığımızın gündəliyi çox genişdir və Yaponiyanın xeyli sayda şirkəti Azərbaycanda kontraktor, investor qismində uğurlu fəaliyyət göstərir. Eyni zamanda, dövlətimizin başçısı iki ölkənin biznes dairələri arasında əməkdaşlığın daha da genişləndirilməsi yollarının müəyyən edilməsinin önəmini də vurğulayıb. Ölkəmizin turizm imkanlarına toxunan Prezident İlham Əliyev Azərbaycana gələn turistlərin sayının ildən-ilə artdığını qeyd edib və respublikamızda turizm infrastrukturunun ən yüksək səviyyədə olduğunu deyib. Dövlətimizin başçısı Yaponiyanın xarici işlər naziri Taro Kononun səfərinin ikitərəfli münasibətlərimizin inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Söhbət zamanı kadr hazırlığı məsələlərində təcrübə mübadiləsinin önəmi vurğulanıb, iqtisadi sahədə əməkdaşlığımızın genişləndirilməsində investisiyaların təşviqinin və qorunmasının əhəmiyyətindən danışılıb, ölkələrimiz arasında iqtisadi əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı, turizm və digər sahələrdə genişləndirilməsinin böyük potensiala malik olduğu qeyd edilib.

# Yaponiya Azərbaycan ilə əlaqələrini daha da inkişaf etdirmək niyyətindədir

*Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov yaponiyalı həmkarı Taro Kononun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb*



Xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə rəsmi səfərdə olan Yaponiyanın xarici işlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, nazir Elmar Məmmədyarov iki ölkə arasında əməkdaşlığın inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin xüsusi əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb.

Ölkəmizdə səfərdə olan Yaponiyanın xarici işlər naziri Taro Kono ona göstərilən diqqətə görə məmnunluğunu ifadə edib. O, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olunduğunu və görüş zamanı çox faydalı müzakirələrin aparıldığını bildirib. Ölkəmizin mühüm coğrafi məkanda yerləşdiyini qeyd edən qonaq Yaponiyanın Azərbaycan ilə əlaqələrini daha da inkişaf etdirmək niyyətində olduğunu vurğulayıb.

Nazirlər Azərbaycan və Yaponiya arasında qarşılıqlı anlaşma və hörmətə əsaslanan dostluq münasibətlərinin qurulduğunu bildirərək ikitərəfli siyasi dialoqun inkişafından məmnunluqlarını ifadə ediblər. Tərəflər enerji sahəsində uğurlu əməkdaşlığın olduğunu bildirərək iqtisadiyyatın digər sahələri, xüsusilə qeyri-neft sektoru üzrə əlaqələrin inkişafı üçün geniş perspektivlərin olduğunu qeyd ediblər.

Elmar Məmmədyarov ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi üzrə aparılan köklü islahatlar barədə məlumat verərək Yaponiya şirkətlərinin qeyri-neft sektorunda daha fəal surətdə təmsil olunması üçün cəlbedici imkanların olduğunu deyib. Diqqətə çatdırılıb ki, Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərindən Yaponiya şirkətləri də faydalana bilərlər. O, həmçinin yaponiyalı həmkarına TAP və TANAP layihələri ilə bağlı görülən işlər haqqında məlumat verib.

İki dövlət arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı dəstək məsələlərinə toxunan tərəflər "GUAM + Yaponiya" formatında tərəfdaşlığın vacibliyini qeyd ediblər.

Görüşdə Azərbaycanın ali təhsil müəssisələrində yapon dilinin tədrisinin, tələbə mübadiləsinin, bu ilin sentyabrında ölkəmizdə cüdo üzrə dünya çempionatının keçirilməsinin, qarşılıqlı mədəni proqramların təşkilinin ikitərəfli humanitar əlaqələrin inkişafına və təmasların artmasına xidmət etdiyi bildirilib. Həmçinin təhsil, idman və mədəni tədbirlərin turizm sahəsində əməkdaşlığın inkişafına töhfə verdiyi qeyd olunub və birbaşa aviareyslərin açılması məsələsi nəzərdən keçirilib.

Nazirlər regional və beynəlxalq gündəliyə aid məsələlərə dair geniş fikir mübadiləsi aparıblar. Elmar Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesi barəsində məlumat verərək, münaqişənin həll olunmamasının, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni mövcudluğunun regional sülh və təhlükəsizliyə ciddi təhdid olduğunu bildirib. O, münaqişənin siyasi yolla həlli və ədalətli sülhün təmin olunması üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq, Ermənistan qoşunlarının bütün işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmalı olduğunu vurğulayıb.

Taro Kono Yaponiyanın münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh yolu ilə həllini dəstəklədiyini bildirib. Yaponiyalı nazir iki ölkə arasında təmasların yaxşılaşdırılması məqsədilə Azərbaycan vətəndaşları üçün viza rejiminin sadələşdirildiyini diqqətə çatdırıb.

Nazir Elmar Məmmədyarov Yaponiyanın beynəlxalq hüququn norma və prinsiplərini əsas tutaraq, GUAM-Yaponiya sənədlərində qeyd olunduğu kimi, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığını dəstəkləməsinin təqdir edildiyini deyib.

Tərəflər qarşılıqlı maraq doğuran məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Görüşdən sonra nazirlər birgə mətbuat konfransı keçiriblər.

# Yaponiya xarici işlər naziri Şəhidlər xiyabanını ziyarət edib



Yaponiya xarici işlər naziri Taro Kono sentyabrın 5-də Şəhidlər xiyabanına gələrək Azərbaycanın azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən Yaponiya xarici işlər nazirinə Şəhidlər xiyabanının tarixi və şəhərimizdə aparılan abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

# Azərbaycanın Baş naziri Yaponiyanın xarici işlər naziri ilə görüşüb



Sentyabrın 5-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov Yaponiyanın xarici işlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Baş nazir Novruz Məmmədov Azərbaycan ilə Yaponiya arasında əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib. Baş nazir bildirib ki, Azərbaycanın müstəqilliyinin bərpasından sonra iki ölkə arasında münasibətlər sürətlə inkişaf edib. Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Yaponiyaya rəsmi səfərlərini xatırladan Novruz Məmmədov yüksək səviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin inkişafında əhəmiyyətini xüsusi vurğulayıb.

Baş nazir Novruz Məmmədov Azərbaycan ilə Yaponiya arasında energetika, iqtisadiyyat, sərmayə qoyuluşu, səhiyyə, ətraf mühitin mühafizəsi və digər sahələrdə əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, digər istiqamətlərdə də əlaqələrin inkişafı üçün böyük potensialın mövcudluğunu diqqətə çatdırıb.

Qeyd olunub ki, Azərbaycanın Yaponiya ilə münasibətlərində iqtisadi əlaqələr prioritet istiqamətlərdəndir. Hazırda Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan tərəfindən yeni həmsədrinin təyin olunması məsələsinə baxılmaqdadır.

Qonaqlara Azərbaycanda yeni yaradılmış sənaye parkları haqqında ətraflı məlumat verən Baş nazir bildirib ki, Yaponiya şirkətləri bu sənaye parklarına cəlb oluna bilər.

Yaponiya xarici işlər nazirinin Azərbaycana səfərinin ölkələrimiz arasında əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyini bildirən Novruz Məmmədov bu səfərin qarşılıqlı əlaqələrimizin genişlənməsində önəmini vurğulayıb.

Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən Yaponiyanın xarici işlər naziri Taro Kono ölkəmizə 19 il əvvəl səfər etdiyini xatırlayıb. Taro Kono bildirib ki, əlverişli geosiyasi mövqedə yerləşən, logistik mərkəzə çevrilən və enerji təhlükəsizliyi baxımından mühüm rol oynayan Azərbaycan Yaponiyanın vacib tərəfdaşıdır. Yaponiyanın xarici işlər naziri oktyabrın 1-dən Azərbaycan vətəndaşları üçün sadələşdirilmiş viza rejiminin tətbiq olunması ilə bağlı qərar verdiklərini bildirib.

# Yaponiyada Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinə böyük maraq göstərilir

*Azərbaycanın və Yaponiyanın xarici işlər nazirləri birgə mətbuat konfransı keçiriblər*




Azərbaycanla Yaponiya arasında əlaqələr yüksək səviyyədədir. Ölkəmizdə Yaponiyanın 30 şirkəti fəaliyyət göstərir. Yaponiya Azərbaycana təqribən 7 milyard dollar investisiya yatırıb.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bakıda səfərdə olan yaponiyalı həmkarı Taro Kono ilə birgə keçirdiyi mətbuat konfransında deyib. E.Məmmədyarov qeyd edib ki, Azərbaycana gələn yapon turistlərin sayı artır. Bu gün turizmin inkişafı üçün Yaponiya və Azərbaycan arasında birbaşa aviareysin açılması məsələsi də müzakirə edildi. Belə bir aviareys açıla bilər.

**"Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Yaponiyanın mövqeyi bəllidir. Onlar hesab edirlər ki, bu münaqişə tezliklə öz həllini tapmalıdır"**, - deyə Elmar Məmmədyarov vurğulayıb.

O qeyd edib ki, yaponiyalı həmkarı ilə görüş zamanı Azərbaycan və Yaponiya arasında müxtəlif sahələrdə sərmayələrin qoyulması məsələləri müzakirə edilib. Yaponiya şirkətləri Azərbaycanda infrastruktur layihələrinin həyata keçirilməsində maraqlıdır. Yaponiya tərəfindən Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin inkişafına böyük maraq göstərilir.

Bakıda səfərdə olan Yaponiyanın xarici işlər naziri Taro Kono bildirib ki, ölkəsi Azərbaycan vətəndaşları üçün viza rejimini sadələşdirmək qərarına gəlib. Yaponiya Azərbaycanla çoxşaxəli münasibətləri möhkəmləndirmək istəyir.

Bu səfər nəticəsində iki ölkə arasında dostluq əlaqələrinin inkişaf edəcəyinə ümid bəslədiyini deyən T.Kono vurğulayıb ki, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsi üzrə sazişin yenilənməsi məmnunluq doğurur. Bu, əməkdaşlığın güclənməsinə yeni təkən verəcək.



# Türkdilli dövlətlər arasında əməkdaşlıq münasibətləri regional və beynəlxalq təhlükəsizliyə strateji töhfələr verir

***Prezident İlham Əliyev:** Bizim əlaqələrimiz siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir və biz bütün istiqamətlər üzrə gözəl nəticələr görürük*

*Müasir dövrdə dünya siyasəti və beynəlxalq münasibətlər sistemi olduqca mürəkkəb xarakterə malikdir. Beynəlxalq müstəvidə işbirliyi, rəqabət, ziddiyyət, inteqrasiya və konfrontasiya-qarşıdurma meyillərinin müşahidə edildiyi bir şəraitdə regional əməkdaşlıq və beynəlxalq təhlükəsizlik məsələləri xüsusi əhəmiyyətə malikdir. Ortaq tarixə və mədəniyyətə malik olan dövlətlər arasında qarşılıqlı faydalı əməkdaşlıq və inteqrasiya məsələləri də diqqət mərkəzindədir.*



Şübhəsiz, uzun əsrlər boyu dünya tarixində öz ədəbiyyatı, mədəniyyəti və bəşəri dəyərləri ilə özünəməxsus yer tutmuş türkdilli xalqlar məhz bu gün mürəkkəb beynəlxalq münasibətlər və qloballaşma şəraitində öz mövcudluğunu qoruyub saxlamaqda, həmçinin bəşəriyyətin inkişafına, inteqrasiya və əməkdaşlığa xüsusi töhfələr verməkdədirlər. Ümumiyyətlə, tarixin bütün dövrlərində ən müxtəlif sosio-mədəni, etno-mədəni və etno-siyasi proseslər və hadisələrin əsas məkanı qismində çıxış edən Avrasiya materikində türkdilli xalqlar millətlərarası münasibətlərin formalaşmasında, müsbət regional və beynəlxalq dəyişikliklərə səbəb olan proseslərin baş verməsində özünəməxsus rol oynayıblar.

Dünyanın mövcud geosiyasi şərtləri fonunda türkdilli dövlətlər arasında əməkdaşlıq münasibətləri bu gün daha aktual və vacib xarakter daşıyır. Xüsusilə, Avrasiyada mühüm geostrateji proseslərin baş verdiyi zamanda türkdilli dövlətlər arasında çoxşaxəli, səmərəli və uğurlu əlaqələrin mövcud olması regional təhlükəsizlik, beynəlxalq inteqrasiya kontekstində çox mühüm əhəmiyyətə malikdir. Sentyabrın 3-də Qırğız Respublikasının Çolpon-Ata şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) VI Zirvə görüşünün keçirilməsi bu baxımdan xüsusi önəm kəsb edir.

### ÖLKƏMİZ TÜRKDİLLİ DÖVLƏTLƏRLƏ MÜXTƏLİF SAHƏLƏRDƏ SIX ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİNƏ MALİKDİR

Qeyd etmək lazımdır ki, hazırda türkdilli dövlətlər arasında intensiv təmaslar həm tərəflər arasında çoxşaxəli münasibətlərin inkişafı, həm də regional və beynəlxalq əməkdaşlıq kontekstində mühüm əhəmiyyətə malikdir. O da vurğulanmalıdır ki, milli maraqlara əsaslanan xarici siyasət həyata keçirən, beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınan Azərbaycan türkdilli dövlətlərlə həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinə malikdir. Bu əlaqələr, əsas etibarilə, siyasi, iqtisadi, nəqliyyat, energetika, ticarət və humanitar sahələri əhatə etməkdədir və bütün istiqamətlərdə əhəmiyyətli nəticələr əldə olunub. Bəhs olunan Zirvə görüşündə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd edib ki, Azərbaycan bütün türkdilli dövlətlərlə sıx əlaqələr saxlayır: **"Bu əlaqələr gündən-günə möhkəmlənir və genişlənir. Bizim əlaqələrimiz siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir və biz bütün istiqamətlər üzrə gözəl nəticələr görürük. Ölkələrimiz beynəlxalq təşkilatlarda da bir-birinə dəstək verir və bu dəstək çox önəmlidir. Hesab edirəm ki, gələcək illərdə beynəlxalq təşkilatlar çərçivəsindəki fəaliyyətimizlə bağlı əlavə addımlar atılacaqdır".**

Türkdilli dövlətlərin ikitərəfli və çoxtərəfli münasibətlərinin inkişafı ilə yanaşı, humanitar məsələlərlə bağlı əməkdaşlıq kontekstində TÜRKSOY-un və Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətinin də yüksək səviyyədə olduğunu qeyd etmək lazımdır. Bu təşkilatlar çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi, humanitar sahələrdə işbirliyinin gücləndirilməsi strateji əhəmiyyət kəsb edir. Dövlətimizin başçısı sözügedən çıxışında bununla bağlı qeyd edib: **"Humanitar məsələlərə gəldikdə, xüsusilə TÜRKSOY-un və Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətini yüksək qiymətləndirmək istərdim. Azərbaycan hər iki təşkilatda fəal iştirak edir".**

### TÜRKDİLLİ DÖVLƏTLƏR ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIĞIN İNKİŞAFI VƏ DƏRİNLƏŞDİRİLMƏSİ XÜSUSİ ƏHƏMİYYƏT KƏSB EDİR

Hazırkı şəraitdə türkdilli dövlətlər arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsi və inkişafı da xüsusi aktuallıq kəsb edir. Özəlliklə də, ticarət dövriyyəsinin artırılması, investisiya layihələrinin reallaşdırılması, qarşılıqlı investisiya qoyuluşunun təşviqi üçün yeni mexanizmlərin işlənməsi xüsusi əhəmiyyətə malikdir. Prezident İlham Əliyev sözügedən çıxışı zamanı bu məqamlara toxunaraq deyib: **"Xüsusilə indiki şəraitdə biz iqtisadi əməkdaşlığı dərinləşdirməliyik. Xüsusilə aramızdakı ticarət dövriyyəsinin artırılması üçün əlavə addımlar atılmalıdır və burada hesab edirəm ki, investisiya layihələri xüsusi rol oynayır. Qarşılıqlı investisiya qoyuluşunu təşviq etmək üçün yeni mexanizmlər işlənməlidir".**

Şübhəsiz ki, çox əlverişli sərmayə mühitinə malik olan Azərbaycan həm də qardaş ölkələrə, ilk növbədə, Türkiyəyə böyük investisiyalar qoyur. Bu həm çoxşaxəli münasibətlərin, həm də iqtisadi əməkdaşlığın inkişafı baxımından müstəsna əhəmiyyətə malikdir. Prezident İlham Əliyev bu məqamlara toxunaraq deyib: **"Azərbaycan qardaş ölkələrə böyük investisiyalar qoyur, ilk növbədə, Türkiyəyə. Son illərdə Türkiyə iqtisadiyyatına 14 milyard dollar sərmayə qoyulub və Türkiyə də Azərbaycana təxminən bu qədər sərmayə qoyub. Bizim Türkiyəyə sərmayələrimizin həcmi yaxın illərdə 20 milyard dollara çatacaq. Bu, bizim dostluğumuzu, qardaşlığımızı əks etdirir, eyni zamanda, Türkiyənin çox böyük iqtisadi potensialını göstərir. Əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə dünya miqyasında böyük gücə çevrilib, "Böyük iyirmilər"in aparıcı ölkələrindən biridir. Biz çox sevinirik ki, Türkiyə bütün sınaqlardan şərəflə çıxır, o cümlədən iqtisadi sınaqlardan. Biz hər zaman bir-birimizin yanındayıq və bunun ən gözəl göstəricisi, yenə də deyirəm, bizim qarşılıqlı sərmayəmizdir. Türkiyədə çox gözəl investisiya iqlimi, biznes üçün çox gözəl şərait var və biz Azərbaycan olaraq bundan sonra da qardaş ölkəyə sərmayə qoyuluşunu davam etdirəcəyik".**

Əlbəttə, Azərbaycan qardaş ölkələrə investisiyalar qoymaqla həm özünün iqtisadi maraqlarını təmin edir, həm də sərmayə yatırdığı ölkələrdə yeni imkanlar yaratmış olur. Buna paralel olaraq qarşılıqlı investisiya qoyuluşunun təşviqi türkdilli dövlətlər arasında birliyin möhkəmləndirilməsinə və əməkdaşlığın dərinləşdirilməsinə xidmət edən çox mühüm strateji faktordur. Dövlətimizin başçısının qeyd etdiyi kimi: **"Bütövlükdə biz qardaş ölkələrə investisiyaların qoyuluşu ilə həm öz iqtisadi maraqlarımızı təmin edirik, həm də ki, bu ölkələrdə yeni imkanlar yaradırıq. Azərbaycan da qardaş ölkələrdən investisiyaları qəbul etmək üçün bütün işləri görüb. Azərbaycanda da gözəl sərmayə iqlimi var və qarşılıqlı sərmayə qoyuluşu bizim birliyimizi daha da möhkəmləndirəcək. Xüsusilə nəzərə alsaq ki, keçən ilin oktyabr ayından Bakı-Tbilisi-Qars dəmir yolu kimi nəhəng infrastruktur layihəsi fəaliyyətdədir. Bu yol Asiyanı Avropa ilə birləşdirir və bu yolla yükdaşımalarının həcmi artır və artmalıdır. Bu, yeni nəqliyyat dəhlizidir, yeni nəqliyyat damarıdır. Azərbaycan dost, qonşu ölkələrlə birlikdə bu layihənin icrası ilə Avrasiyanın nəqliyyat xəritəsini yenidən tərtib etmiş olur. Nəzərə alsaq ki, nəqliyyat baxımından bu, çox əlverişli yoldur, mən bütün dost ölkələri bu yoldan istifadə etməyə çağırıram, o cümlədən Avropa ölkələrini, Macarıstanı, Özbəkistanı, Qırğızıstanı. Artıq Qazaxıstan, Türkiyə, Azərbaycan bu yoldan istifadə edir".**

Nəticə etibarilə, müasir beynəlxalq şəraitdə türkdilli dövlətlərin sıx iqtisadi-ticari əlaqələrinin inkişafı və mövcud potensialdan səmərəli istifadə olunması müstəsna əhəmiyyətə malikdir. Bu həm də Avrasiyada yeni tərəfdaşlıq platformalarının formalaşdırılmasına etibarlı zəmin yaradan, qlobal inteqrasiyaya və əməkdaşlığa töhfələr verən strateji amildir.

### REGİONAL TƏHLÜKƏSİZLİK VƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ MƏSƏLƏLƏRİ DİQQƏT MƏRKƏZİNDƏDİR

Türkdilli dövlətlər öz praqmatik xarici siyasət kursları, o cümlədən çoxşaxəli münasibətləri ilə regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfə verirlər. Mövcud geosiyasi reallıqlar kontekstində türkdilli dövlətlər arasında əlaqələrin sıx - intensiv xarakter daşıması və münasibətlərin inkişafı həm də regionda sülh və sabitliyin, beynəlxalq təhlükəsizliyin təmin olunması baxımından olduqca əhəmiyyətlidir.

Regional təhlükəsizlikdən bəhs edərkən, heç şübhəsiz, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mövcudluğunu xüsusi olaraq qeyd etmək lazımdır. Bu məsələ Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşündə diqqət mərkəzində olub. Xüsusi olaraq vurğulamaq gərəkdir ki, Azərbaycan dövləti bütün beynəlxalq tribunalardan istifadə edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin zəruriliyini daim diqqətə çatdırır. Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycanın mövqeyi qəti və birmənalıdır. Münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Çünki Dağlıq Qarabağ həm tarixi, həm də məhz hüquqi baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Prezident İlham Əliyev bəhs olunan çıxışı zamanı bu məqamlara toxunaraq deyib: **"Regional təhlükəsizlik məsələləri xüsusi əhəmiyyət daşıyır. Çünki indiki dünyada yeni risklər, təhdidlər yaranır, yeni münaqişə, müharibə ocaqları alovlanır. Azərbaycan uzun illərdir ki, Ermənistanın işğalından əziyyət çəkir. İyirmi ildən çoxdur ki, beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınan Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altındadır. Bu işğal nəticəsində torpaqlarımızın təxminən 20 faizi Ermənistan tərəfindən zəbt olunmuş, bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın və köçkün vəziyyətinə düşmüşdür".**

Dövlətimizin başçısı xalqımıza qarşı etnik təmizləmə siyasətinin aparıldığını, hərbi cinayətlərin, Xocalı soyqırımının törədildiyini diqqətə çatdıraraq qeyd edib ki, bu gün 10-dan çox ölkə Xocalı soyqırımını rəsmən tanıyır: **"Bir gecədə 600-dən çox günahsız insan, onların arasında 100-dən çox qadın, 60-dan çox uşaq ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir, mindən çox insan itkin düşüb. Onların taleyi haqqında heç bir məlumat yoxdur. İşğal edilmiş torpaqlarda Ermənistan bizim bütün tarixi, dini abidələrimizi, məscidlərimizi, əcdadlarımızın qəbirlərini dağıdıb, maddi sərvətlərimiz Ermənistan tərəfindən talan edilib. Bu, hərbi cinayətdir və bu cinayəti törədənlər ədalət qarşısında cavab verməlidirlər və verirlər. Təsadüfi deyil ki, 20 il ərzində Ermənistana rəhbərlik etmiş kriminal rejim çökdü və bu gün bizim dediyimizi erməni xalqı deyir. Ümid edirik ki, Ermənistanın yeni rəhbərliyi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı konstruktiv mövqe tutacaq, tezliklə bizim torpaqlarımız işğaldan azad olunacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək və bölgədə sülh və əməkdaşlıq yaranacaqdır".**

Qeyd etdiyimiz kimi, Azərbaycan dövləti bütün diplomatik imkanlardan və beynəlxalq tribunalardan istifadə edərək Dağlıq Qarabağ münaqişəsinin həllinin zəruriliyini daim diqqətə çatdırır. Azərbaycanın bu istiqamətdə prinsipial mövqeyi ayrı-ayrı milli dövlətlər və beynəlxalq ictimaiyyət tərəfindən problemə adekvat yanaşmanın ortaya qoyulmasını şərtləndirib. Yəni Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi üstünlük təşkil edir. Prezident İlham Əliyev bəhs olunan çıxışı zamanı qeyd edib ki, bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır, BMT Təhlükəsizlik Şurası - dünyanın ən ali orqanı münaqişə ilə bağlı 4 qətnamə qəbul edib: **"Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması haqqında çox dəqiq müddəalar var və münaqişə əlbəttə ki, bu prinsiplər əsasında öz həllini tapmalıdır. Digər beynəlxalq təşkilatlar, o cümlədən ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti oxşar qərar və qətnamələr qəbul etmişlər. Bu, münaqişənin həlli üçün əsas hüquqi bazadır".**

Bütövlükdə, bəhs olunan Zirvə görüşü türkdilli dövlətlər arasında müxtəlif sahələri əhatə edən əlaqələrin daha da gücləndirilməsi və münasibətlərin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir.

**Nurlan QƏLƏNDƏRLİ**

# Azərbaycanın Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Rumıniyada bir sıra görüşlər keçirib



Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfovun rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 3-dən 5-dək Rumıniyada səfərdə olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Rumıniya Baş nazirinin strateji tərəfdaşlığın həyata keçirilməsi üzrə müavini Ana Birçal, xarici işlər naziri Teodor Meleşkanu ilə görüşlər keçirilib, nazir müavini Danuts Sebastian Nekulaesku ilə Azərbaycan və Rumıniya Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb.

Görüşlərdə iki ölkə arasında münasibətlərin dərin tarixi köklərə və əməkdaşlıq-tərəfdaşlıq ənənələrinə əsaslandığı, bu əlaqələrin bu gün də uğurla genişləndirilməsi və dərinləşdirilməsi məsələləri müzakirə olunub. Həmçinin ölkələrimizin ikitərəfli və çoxtərəfli müstəvidə də fəal və səmərəli əməkdaşlıq etdikləri bildirilib.

Söhbət zamanı Rumıniyanın Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk ölkələrdən olduğu qeyd edilib. Ötən dövrdə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatmasının hər iki ölkənin bu istiqamətdə əzmkar və səmərəli fəaliyyətinin nəticəsi olduğu vurğulanıb. Avropa İttifaqı-Azərbaycan əlaqələrinin genişləndirilməsi istiqamətində strateji tərəfdaş kimi Rumıniyanın mühüm rol oynadığı qeyd edilib. Gələn ilin ilk yarısında Rumıniyanın Avropa İttifaqı (Aİ) Şurasında sədrliyinin Aİ-Azərbaycan əlaqələrinin dərinləşməsi və möhkəmlənməsi baxımından faydalı olacağı ifadə edilib.

Hər iki ölkənin müstəqilliyinin 100, diplomatik əlaqələrin 25, strateji tərəfdaşlıq münasibətlərinin 10 illiyi barədə söhbət aparılıb, ölkələr arasında əldə edilmiş uğurların davamlı olacağı vurğulanıb.

Görüşlərdə iqtisadi əlaqələr də müzakirə edilib, qeyri-neft sektoru, kənd təsərrüfatı, infrastruktur, informasiya texnologiyaları, turizm, humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün zəruri işlərin həyata keçirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunulub. Münaqişənin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əsasında həll olunmasının Rumıniya tərəfindən həmişə dəstəklənəcəyi vurğulanıb.

Xələf Xələfov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində ədalətli mövqeyinə görə Rumıniya tərəfinə minnətdarlığını bildirib.

Görüşlər çərçivəsində siyasi məsləhətləşmələrin mütəmadi olaraq keçirilməsinin vacibliyi vurğulanıb, Xarici İşlər nazirliklərinin idarələri arasında görüşlərin keçirilməsi, bu istiqamətdə Strategiya Planının üzərində çalışıldığı qeyd edilib. Rumıniyanın Baş naziri Viorika Dançilanın Azərbaycana səfərinin qısa müddət ərzində həyata keçirilməsinin nəzərdə tutulduğu bildirilib.

Siyasi məsləhətləşmələr zamanı iqtisadi əməkdaşlığın genişləndirilməsinin vacibliyi qeyd olunub, Qara dəniz-Xəzər dənizi Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsi və Rumıniyanın TAROM şirkəti tərəfindən Buxarest-Bakı istiqamətində uçuşların həyata keçirilməsi məsələləri müzakirə edilib.

Görüşlərdə, həmçinin regionda və dünyada baş verən siyasi hadisələrlə bağlı müzakirələr, hazırkı geosiyasi vəziyyətdə ölkələrimizin milli maraqlarına dair fikir mübadilələri də aparılıb.

Səfər çərçivəsində Buxarest şəhərində Tei parkındakı Heydər Əliyev xiyabanı ziyarət edilib, Ulu öndərimizin abidəsi önünə gül dəstələri qoyulub.

# XİN: Dan Bilzeryanın qanunazidd əməlləri Azərbaycan ilə ABŞ arasında olan dostluq əlaqələrinin ruhuna ziddir

*ABŞ səfirliyinin müvəqqəti işlər vəkili Azərbaycanın Xarici İşlər Nazirliyinə çağırılıb*

Amerika Birləşmiş Ştatlarının Dan Bilzeryan adlı vətəndaşının Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfəri, bu səfər əsnasında odlu silahlardan istifadə etməsi və digər qanunazidd əməlləri ilə əlaqədar ABŞ səfirliyinin müvəqqəti işlər vəkili Azərbaycanın Xarici İşlər Nazirliyinə çağırılıb və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin ABŞ Dövlət Departamentinə ünvanlanan notası ona təqdim olunub.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş əsnasında Dan Bilzeryan adlı birisinin Azərbaycan Respublikasının Dövlət Sərhədi haqqında Qanunu və Miqrasiya Məcəlləsini pozaraq, müvafiq sənədlər təqdim etmədən və ölkəmizin müvafiq qurumları tərəfindən müəyyən edilməyən sərhəd-keçid məntəqələrindən kənar Ermənistan ərazisindən Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etdiyi, Xankəndi şəhəri və işğal olunmuş digər ərazilərdə olarkən qondarma rejimi təşviq etdiyi, qanunsuz yolla odlu silahlar əldə etdiyi və nümayişkarcasına və təxribatçı məqsədlərlə bu silahlardan Azərbaycan Silahlı Qüvvələrinin mövqeyinə atəş açdığı diqqətə çatdırılıb.

Həmçinin ABŞ vətəndaşı olan bu şəxsin kameralar qarşısında tərbiyəsiz və nadan açıqlamalarının Azərbaycan xalqının ləyaqətinə və mənəvi dəyərlərinə toxunduğu və onun bu kimi əməllərinin Azərbaycan ilə ABŞ arasında olan dostluq əlaqələrinin ruhuna zidd olduğu diqqətə çatdırılıb.

Onun bu kimi qanunsuz əməlləri ilə əlaqədar Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən cinayət işinin açıldığı və məsuliyyətə cəlb edilməsi üçün zəruri tədbirlərin görüldüyü vurğulanıb.

Azərbaycan tərəfdən ABŞ hökumətinin D.Bilzeryan adlı birisinin qanunsuz əməlləri ilə əlaqədar ölkəmizin narahatlığını ciddi surətdə nəzərə alacağı, öz vətəndaşlarının Azərbaycan Respublikasının milli qanunları, suverenliyi və ərazi bütövlüyünün, habelə beynəlxalq hüququn norma və prinsiplərinin pozulması hallarından çəkindirmək üçün zəruri tədbirlər görəcəyinin gözlənildiyi qeyd olunub.

# Azərbaycan Prezidentinin Rusiyaya rəsmi səfəri ölkələrimizin əməkdaşlığının bütün istiqamətlərdə inkişafına mühüm töhfə verəcək



Xəbər verildiyi kimi, sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına rəsmi səfər edib. Səfər çərçivəsində dövlət başçılarının təkbətək və geniş tərkibdə görüşləri keçirilib, ölkələrimiz arasında müxtəlif sahələrdə 17 sənəd imzalanıb, prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. Azərbaycan-Rusiya əlaqələrinin kompleks inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edən bu səfər iqtisadi sahədə ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsində də mühüm önəm daşıyır. İqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfərinə, eləcə də Azərbaycan-Rusiya iqtisadi əlaqələrinə dair AZƏRTAC-ın suallarını cavablandırıb.

**- Azərbaycan Respublikası Prezidentinin Rusiya Federasiyasına rəsmi səfərini ölkələrimiz arasında əməkdaşlığın inkişafı baxımdan necə səciyyələndirərdiniz?**

- İlk növbədə, qeyd etmək istərdim ki, Azərbaycan-Rusiya əlaqələri möhkəm dostluğa, mehriban qonşuluğa, etibarlı tərəfdaşlığa və qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Azərbaycan və Rusiya dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və prezidentlərin müntəzəm görüşləri dövlətlərarası münasibətlərə yüksək dinamizm verir. Son üç ayda Azərbaycan və Rusiya prezidentləri 3 dəfə görüşüb. Bütün bunlar isə, dövlət başçılarının qarşılıqlı əməkdaşlığın genişlənməsinə verdikləri böyük önəmin göstəricisidir. Siyasi əlaqələrin strateji xarakteri, Azərbaycan və Rusiya prezidentlərinin dostluq münasibətləri iqtisadi əməkdaşlığın inkişafı üçün əlverişli zəmin yaradır. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin Rusiya Federasiyasına sentyabrın 1-də reallaşdırılan növbəti rəsmi səfəri mühüm əhəmiyyət kəsb edir.

Səfər çərçivəsində aparılan danışıqlar, imzalanan sənədlər Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığının gələcək inkişafı üçün möhkəm əsas yaradır. Səfərin 2008-ci ildə Azərbaycan və Rusiya arasında imzalanmış dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamənin 10 illiyinə təsadüf etməsi xüsusilə qeyd olunmalıdır. Rusiya səfərinin başlıca xüsusiyyətlərindən biri də onun daha çox iqtisadi mahiyyət daşımasıdır. Belə ki, səfər zamanı Azərbaycan-Rusiya əməkdaşlığının müxtəlif istiqamətləri ilə yanaşı, iqtisadi məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, ölkələrimiz arasında əlaqələrin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm sənədlər imzalanıb.

Bu sənədlər arasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən imzalanmış "Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanat" xüsusilə vurğulanmalıdır. Sənəddə qarşılıqlı faydalı ticari-iqtisadi və investisiya əməkdaşlığının inkişafı üçün ticarətdə daha əlverişli şəraitin yaradılması, intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Rusiya-Azərbaycan hissələrində tranzit-nəqliyyat potensialının artırılması, milli iqtisadiyyatın və ixracın şaxələndirilməsi, innovasiyalı inkişaf sahəsində məsələlərin həlli üçün perspektiv sahələrdə və sektorlarda birgə istehsalın yaradılması, dövlət idarəçiliyi sahəsində innovativ yanaşmaların, büdcə-vergi sahəsində müasir rəqəmsal texnologiyaların tətbiqi üzrə birgə fəaliyyətin inkişafı, dövlət sektorunda istifadə üçün qabaqcıl proqram təminatının tətbiqi üzrə təcrübə mübadiləsi və əməkdaşlıq, gənclər siyasəti, təhsil, idman və turizm məsələləri daxil olmaqla humanitar sahədə əməkdaşlığın genişləndirilməsi kimi mühüm prioritetlər müəyyənləşdirilib. Birgə Bəyanatda əksini tapan inkişaf istiqamətləri Azərbaycan Respublikası və Rusiya Federasiyası arasındakı mövcud strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsində iqtisadi əməkdaşlığın rolunu və əhəmiyyətini artıracaq, iqtisadi-ticari əlaqələrin müasir tələblərə cavab verən yeni inkişaf səviyyəsinə yüksəldilməsinə zəmin yaradacaqdır.

Bununla yanaşı, səfər çərçivəsində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında 2024-cü ilədək Əməkdaşlıq Proqramı", "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə 2024-cü ilədək Fəaliyyət Planı", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında Saziş", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi haqqında Saziş", eləcə də turizm, gömrük, idman, rəqəmsal nəqliyyat, əmlak hüquqlarının qeydiyyatı və kadastr fəaliyyəti, Rusiyanın müvafiq dövlət şirkətləri və SOCAR arasında əməkdaşlığın genişləndirilməsi, mülki vertolyotlara texniki xidmət göstərilməsi barədə müvafiq sənədlər Azərbaycan-Rusiya iqtisadi əlaqələrinin genişlənməsinə əlavə stimul verəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin Rusiya Federasiyasına rəsmi səfəri zamanı Rusiyanın "Kiçik və orta sahibkarlığın inkişafı üzrə Federal Korporasiya" Səhmdar Cəmiyyəti ilə "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" publik hüquqi şəxs arasında qarşılıqlı Anlaşma Memorandumu çərçivəsində tədbirlərin reallaşdırılması üzrə Yol Xəritəsi də imzalanıb. Sənəddə kiçik və orta biznes (KOB) subyektlərinə informasiya-marketinq dəstəyinin göstərilməsi sahəsində əməkdaşlıq, kontakt birjaların təşkili, təcrübə, maliyyə-sığorta və marketinq dəstəyi, təlim proqramları, eləcə də digər istiqamətlər üzrə tədbirlər barədə məlumat mübadiləsi nəzərdə tutulur. Bundan əlavə, yol xəritəsinə əsasən, Rusiya və Azərbaycanda KOB sahəsində fəaliyyət göstərən istehsal birlikləri və assosiasiyaları, inkişaf institutları arasında qarşılıqlı məsləhətləşmələrin aparılması və əməkdaşlığın qurulmasına dəstək göstəriləcəkdir.

**- Səfər zamanı imzalanmış "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə 2024-cü ilədək Fəaliyyət Planı" özündə 5 yol xəritəsini əks etdirir. Bu barədə məlumat verməyinizi xahiş edirik.**

- Həmin Fəaliyyət Planına uyğun olaraq, bu yol xəritələri ticarət, nəqliyyat, Azərbaycan ərazisində birgə istehsalın yaradılması, büdcə-vergi sektorunun rəqəmsallaşdırılması sahələrində qarşılıqlı fəaliyyəti və humanitar sahədə əməkdaşlığı nəzərdə tutur.

Azərbaycan və Rusiya arasında ticarətə dair yol xəritəsinə əsasən, ticari-iqtisadi əməkdaşlıq üzrə məsləhətləşmələr aparılacaq, kənd təsərrüfatı məhsullarının tədarükü artırılacaq, qarşılıqlı ticarət missiyaları həyata keçiriləcək, Rusiyanın dövlət şirkətləri tərəfindən Azərbaycan istehsalı olan sənaye təyinatlı məhsulların alınması genişləndiriləcək, Rusiya ərazisində Azərbaycan Ticarət evləri açılacaq, hər iki ölkənin İşgüzar Şuraları, həmçinin digər sahibkar birlikləri arasında biznes-dialoq dəstəklənəcək, birgə regionlararası forumlar, kənd təsərrüfatı üzrə Azərbaycan-Rusiya İşçi Qrupunun iclasları keçiriləcək.

Nəqliyyat sahəsində əməkdaşlığın inkişafı üzrə yol xəritəsində ölkələrimizin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üzrə qarşılıqlı fəaliyyəti, Azərbaycan və Rusiya ərazilərində logistik mərkəzlərin yaradılması, "Yaraq-Qazmalar" avtomobil buraxılış məntəqəsinin buraxılış qabiliyyətinin artırılması üçün yenidənqurma işlərinin aparılması, Azərbaycan-Rusiya dövlət sərhədindən "Yaraq-Qazmalar" (Rusiya Federasiyası) - "Samur" (Azərbaycan Respublikası) buraxılış məntəqələri ərazisində Samur çayı üzərində avtomobil körpüsünün tikintisinə dair Sazişin icrası nəzərdə tutulur.

Azərbaycan ərazisində birgə istehsalın (layihələrin) yaradılması üzrə yol xəritəsində əczaçılıq, avtomobillərin yığılması, neft-qaz sahəsi üçün avadanlığın birgə istehsalının təşkili, kənd təsərrüfatı texnikasının istehsalı sahələrində birgə istehsalın və müəssisələrin yaradılması, eləcə də dəmir yolu vaqonlarının birgə istehsalının yaradılması imkanlarına baxılması məsələləri əksini tapıb.

Büdcə-vergi sektorunun rəqəmsallaşdırılması sahəsində qarşılıqlı fəaliyyət üzrə yol xəritəsi vahid ƏDV depozit hesabından istifadə və subhesabların idarə edilməsi təcrübəsinin öyrənilməsi, kommersiya hüquqi şəxslərinin elektron dövlət qeydiyyatı, elektron faktura və qaimələrin istifadəsi, həmçinin vergi borcunun alınması sahəsində əməkdaşlıq və qarşılıqlı yardım məsələləri üzrə Anlaşma Memorandumu layihəsi ilə bağlı danışıqların aparılması məsələlərini əhatə edir.

Qarşılıqlı səfərlərin və humanitar əlaqələrin genişləndirilməsi üzrə yol xəritəsinə əsasən miqrasiya sahəsində əməkdaşlıq üzrə tədbirlər görüləcək, pensiya təminatı sahəsində ikitərəfli əməkdaşlıq inkişaf etdiriləcək, turizm məhsulunun təşviqi üzrə milli marketinq strategiyaları hazırlanacaq və bu sahədə təcrübə mübadiləsi həyata keçiriləcək, Azərbaycan və Rusiya ərazilərində keçirilən beynəlxalq turizm sərgilərində, seminarlarda və reklam-informasiya tədbirlərində qarşılıqlı iştirak təmin ediləcək, turizm sahəsində investisiya layihələrinə dair məlumat mübadiləsi aparılacaq, Rusiyanın qabaqcıl ali təhsil müəssisələrinin filiallarının Azərbaycanda açılması imkanları müzakirə olunacaq.

Beləliklə, "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə 2024-cü ilədək Fəaliyyət Planı"nın həyata keçirilməsi Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsinə mühüm töhfə verəcək.

**- Energetika sahəsində əməkdaşlığın genişləndirilməsi məsələsi də Rusiyada keçirilən görüşlərdə əsas müzakirə mövzularından olub...**

- Tamamilə doğrudur. Energetika sahəsində Azərbaycan-Rusiya əməkdaşlığı xüsusi diqqət göstərilən məsələlərdəndir. Artıq qeyd olunduğu kimi səfər zamanı "Rosneft" Neft Şirkəti ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında "Qoşadaş" blokunun və Xəzər dənizi təkinin Azərbaycan hissəsində yerləşən Abşeron yarımadasının dayazsulu şimal hissəsinin neft və qaz potensialının birgə öyrənilməsi, "Qazprombank" Səhmdar Cəmiyyəti, "Rusiya İxrac Mərkəzi" Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Rusiya Federasiyasından ixracın dəstəklənməsi sahəsində layihələrin birgə reallaşdırılması çərçivəsində strateji əməkdaşlıq haqqında sazişlər və "Rosneft" Neft Şirkəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında müqavilə imzalanıb. Bu sənədlər SOCAR-ın Rusiyanın neft-qaz şirkətləri ilə səmərəli və uzunmüddətli əməkdaşlığını nəzərdə tutur.

Bununla yanaşı, dövlət başçılarının görüşlərində hər iki ölkənin energetika sistemlərinin paralel rejimdə fəaliyyət göstərdiyi qeyd olunub. Görüşlərdə Azərbaycan və Rusiya enerji sistemləri arasında 330 kVt-luq ikinci dövlətlərarası "Yaşma-Dərbənd" elektrik verilişi xəttinin tikintisi məsələsi müzakirə olunub. Bu, mövcud elektrik verilişi gücünü 600 mVt-dək artırmağa imkan yaradacaq və Rusiya-Azərbaycan-İran enerji dəhlizinin inkişafına töhfə verməklə, Azərbaycan və Rusiyanın enerji təhlükəsizliyinə xidmət edəcək.

**- Dövlət başçılarının görüşlərində nəqliyyat-tranzit sahəsində Azərbaycan-Rusiya əməkdaşlığı mühüm istiqamətlərdən biri kimi qeyd edilib.**

- Azərbaycan Respublikası Prezidentinin Rusiyaya səfəri zamanı Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin region üçün əhəmiyyəti, tranzit və yükdaşımaların həcminin artmasında önəmi xüsusilə vurğulanıb.

Belə ki, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən və bu baxımdan əlverişli geostrateji mövqeyə malik olan Azərbaycanın tranzit daşımaları sahəsində potensialını reallaşdırmaq məqsədilə nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində mühüm işlər görülür. Azərbaycan və Rusiya arasında avtomobil, dəmir yolları və hava nəqliyyatı ilə sərnişin və yükdaşımalar həyata keçirilir.

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi nəinki Azərbaycan, həm də digər ölkələr, eləcə də Rusiya üçün nəqliyyat-tranzit sahəsində əməkdaşlıq baxımından əhəmiyyətlidir. Rusiyada keçirilən görüşlərdə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində Azərbaycanın bütün infrastruktur layihələrini həyata keçirdiyi, nəqliyyat dəhlizi vasitəsilə əvvəlki illə müqayisədə 100 dəfə çox yük daşındığı xüsusilə vurğulanıb. Qeyd olunub ki, bu nəqliyyat dəhlizinin potensialı daha böyükdür. Bu dəhliz daha çox ölkəni əhatə etməklə, iqtisadi-ticari əlaqələrin genişlənməsində və tranzit imkanlarının artmasında faydalı ola bilər. Hazırda Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin ayrı-ayrı hissələri üzrə işlər davam etdirilir. Nəqliyyat dəhlizinin bir hissəsi olan və Rusiya ilə birgə həyata keçirilən Samur sərhəd çayı üzərindən körpünün tikintisinin 2019-cu ildə başa çatdırılması nəzərdə tutulur. Bu, Azərbaycan-Rusiya nəqliyyat və ticarət əlaqələrinin inkişafına, yük daşımalarının artmasına əhəmiyyətli dərəcədə təsir edəcəkdir.

Səfər zamanı, həmçinin Rusiyanın Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə yükdaşımalar həyata keçirməsi imkanları, ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması məqsədilə Azərbaycan istehsalı olan aksizli malların ixracı üçün Azərbaycan-Rusiya sərhədində xüsusi gömrük postunun yaradılması məsələləri də müzakirə edilib. Görüşlərdə gömrük infrastrukturunun təkmilləşdirilməsi istiqamətində işlərin aparıldığı vurğulanıb.

**- Azərbaycandan Rusiyaya ənənəvi olaraq daha çox kənd təsərrüfatı məhsulları ixrac olunur. İxracın həcminin artırılması üçün hansı tədbirlər görülür?**

- Qeyd etməliyəm ki, kənd təsərrüfatı məhsulları ticarətinin genişləndirilməsi, Azərbaycandan Rusiyaya meyvə-tərəvəz satışının artırılması dövlət başçıları tərəfindən qarşıya qoyulmuş əsas vəzifələrdəndir. Bu sahədə əməkdaşlığın inkişafı məqsədilə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının nəzdində müvafiq İşçi Qrup fəaliyyət göstərir. İşçi Qrup tərəfindən görülmüş tədbirlər nəticəsində indiyədək 20-dən çox Azərbaycan müəssisəsi Rusiya Federasiyası Kənd Təsərrüfatı Nazirliyi yanında Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidmətin reyestrinə daxil edilib və həmin müəssisələrə istehsal etdikləri ət və süd məhsullarının maneəsiz olaraq Rusiyaya ixrac edilməsinə razılıq verilib.

Yeri gəlmişkən deyim ki, mütəmadi olaraq keçirilən videokonfranslarda istehsalçıların və fermerlərin Rusiya bazarına daha rahat çıxışı üçün yaradılan əlavə imkanlar barədə qarşı tərəf məlumatlandırılır, ortaya çıxan məsələlərin operativ həlli üçün müvafiq tədbirlər görülür, bu məhsulların istehsalını və ixracını artırmaq üçün müxtəlif stimullaşdırma mexanizmləri tətbiq edilir.

Bundan başqa, ixracın genişləndirilməsi, "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə Rusiyaya ixrac missiyaları təşkil edilib, Azərbaycan şirkətləri Rusiyada keçirilmiş "Worldfood", "Prodexpo" və sair kimi önəmli sərgilərdə vahid ölkə stendi ilə təmsil olunub, ölkəmizin meyvə və meyvə şirələrinə dair "Rossiya 24" telekanalında reklam çarxları nümayiş etdirilib. Bu ilin sonunadək Rusiyaya yeni ixrac missiyaları təşkil olunacaq, Azərbaycanın 30-dan çox şirkətinin məhsulları sentyabrda qonşu ölkədə keçiriləcək "Worldfood Moscow" Sərgisində vahid ölkə stendində nümayiş etdiriləcək. Qeyd edim ki, 2017-ci ildə olduğu kimi, bu il də Azərbaycan "Worldfood Moscow" Sərgisinin eksklüziv tərəfdaşıdır. Bu tədbirlər çərçivəsində Azərbaycanın kənd təsərrüfatı və emalı məhsullarının Rusiyaya ixracına dair müqavilələr bağlanıb və hazırda bu müqavilələr üzrə ixrac davam etdirilir.

Görülən işlərin nəticəsi olaraq, 2017-ci ildə Rusiyaya meyvə ixracı 20,9 faiz, tərəvəz ixracı isə 58,4 faiz artıb. Bu ildə də artım meyili davam edir. Belə ki, 2018-ci ilin birinci yarısında meyvə ixracında 70,6 faiz, tərəvəz ixracında isə 10,3 faiz artıma nail olunub.

**- Cənab nazir, Azərbaycan-Rusiya əlaqələrinin hazırkı vəziyyəti, imzalanmış sənədlərin əməkdaşlığın gələcək inkişafında rolu barədə nə deyərdiniz?**

- Əvvəlcə qeyd edim ki, Azərbaycanla Rusiya arasında ticarət, investisiya, sənaye, energetika, aqrar, nəqliyyat və tranzit daşımaları, səhiyyə, gömrük, bankçılıq, idman, turizm və digər sahələr üzrə çoxşaxəli əməkdaşlıq həyata keçirilir. Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və ölkələrimiz arasında ticarət dövriyyəsi dinamik olaraq artır. Rusiya idxala görə Azərbaycan üçün əsas tərəfdaşdır, qeyri-neft məhsullarımızın ixracı üzrə birinci yerdədir. Bununla belə, ticarət əlaqələrinin daha da genişlənməsi üçün sistemli və ardıcıl tədbirlər davam etdirilir.

Azərbaycanın xaricdə ilk ticarət nümayəndəliyinin məhz Rusiya Federasiyasında yaradılması iqtisadi-ticarət əlaqələrinin inkişafına verilən önəmin göstəricisidir. Bu ilin mayında Həştərxanda Heydər Əliyev Fondunun dəstəyi ilə açılmış Azərbaycan İş Mərkəzi iqtisadi əlaqələrin genişlənməsində xüsusi əhəmiyyətə malik mexanizmdir. 2018-ci ilin sonunadək İş Mərkəzində şərab və çay evləri fəaliyyətə başlayacaq. Bu il, həmçinin Rusiyanın Yekaterinburq şəhərində Azərbaycan Ticarət Evinin, Moskva və Sankt-Peterburq şəhərlərində isə Azərbaycan Şərab evlərinin açılması planlaşdırılır. Bakıda Rusiya İxrac Mərkəzinin nümayəndəliyinin açılması, Moskvadakı Ümumrusiya Sərgi Mərkəzində Azərbaycan pavilyonunun yaradılması istiqamətində görülən işlər ticarət əlaqələrinin genişlənməsinə əhəmiyyətli töhfələrdir.

Azərbaycan-Rusiya iqtisadi-ticari əlaqələrinin inkişafında Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuralarının fəaliyyəti də qeyd edilməlidir.

Ölkələrimiz arasında qarşılıqlı investisiya qoyuluşları və birgə layihələr həyata keçirilir. Azərbaycan tərəfindən Rusiya iqtisadiyyatına 1 milyard ABŞ dollarından çox sərmayə qoyulub, Rusiya isə Azərbaycan iqtisadiyyatına 4 milyard ABŞ dollarından artıq investisiya yatırıb. Azərbaycanda Rusiya kapitallı 700-dən çox şirkət fəaliyyət göstərir.

"SOCAR Polymer" layihəsi və Pirallahı Sənaye Parkında yaradılan Azərbaycan-Rusiya birgə əczaçılıq müəssisəsi iqtisadi əməkdaşlığımızın önəmli nümunələrindəndir. "SOCAR Polymer" polipropilen qurğusu artıq fəaliyyət göstərir, yüksək təzyiqli polietilen qurğusu bu ilin sonunadək istismara veriləcəkdir. Əczaçılıq zavodunda qablaşdırma xəttinin isə 2019-cu ildə istifadəyə verilməsi nəzərdə tutulur.

2015-ci ildə imzalanmış müqaviləyə uyğun olaraq, hazırda Gəncə avtomobil zavodunda "KamAZ" markalı yük maşınları yığılır. Bu sahədə əməkdaşlığın davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin Rusiya Federasiyasına rəsmi səfəri zamanı Hacıqabul Sənaye Məhəlləsində kiçik tonnajlı "QAZ" markalı avtomobillərin yığılması barədə razılıq əldə edilib və bu məqsədlə Sənaye Məhəlləsində zavod tikiləcəkdir.

Azərbaycan, həmçinin Rusiyanın federal subyektləri ilə də sıx əməkdaşlıq edir və Rusiyanın Şimali Qafqaz regionunda əsas investorlardandır. Yessentukidə "İstoçnik" sanatoriya-turizm mərkəzi, Krasnodarda meyvə-tərəvəz konservləri və çay istehsalı zavodları, Jeleznovodskda və Kislovodskda sanatoriya-mehmanxana kompleksinin tikintisi və sair Rusiyada Azərbaycan şirkətləri tərəfindən reallaşdırılan uğurlu layihələrdəndir.

Azərbaycan və Rusiya arasında ənənəvi regionlararası forumlar təşkil edilir və belə tədbirlər ikitərəfli əməkdaşlığın inkişafında mühüm rol oynayır. Növbəti Azərbaycan-Rusiya Regionlararası Forumunun bu ilin sentyabrın sonunda ölkəmizdə keçirilməsi nəzərdə tutulur.

Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığının perspektivlərinə gəlincə isə, ölkəmiz əlaqələrin genişlənməsinə xüsusi önəm verir və bu baxımdan sənaye, neft maşınqayırması, turizm, tranzit, Rusiya şirkətlərinin Azərbaycanda yaradılan sənaye parklarında və aqroparklarda investor kimi iştirakı, birgə müəssisələrin yaradılması, qeyri-neft məhsullarımızın Rusiyaya ixracının, regionlararası əməkdaşlığın genişləndirilməsi və sair sahələrdə əməkdaşlıq imkanları genişdir.

İqtisadi sahə ilə yanaşı, digər sahələrdə də uğurlu əməkdaşlıq həyata keçirilir. Humanitar sahədə ölkələrimiz arasında əlaqələrin inkişafında Heydər Əliyev Fondunun və Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (AMOR) mühüm xidmətləri vardır.

Ölkələrimizin təhsil sahəsində də əlaqələri inkişaf edir. Bu baxımdan, Azərbaycanda M.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filiallarının uğurlu fəaliyyəti xüsusilə qeyd olunmalıdır.

Qeyd edim ki, Rusiyada 11 mindən çox azərbaycanlı tələbə təhsil alır. Azərbaycanda təhsilin rus dilində olduğu 340-dan çox məktəb, rus və digər slavyan dillərinin tədris edildiyi Bakı Slavyan Universiteti, Azərbaycanın Təhsil Nazirliyinin tabeliyində olan 14 ali təhsil müəssisəsində müxtəlif ixtisaslar üzrə rus bölmələri fəaliyyət göstərir.

Sonda bir daha vurğulamaq istərdim ki, Azərbaycan Respublikası Prezidentinin Rusiya Federasiyasına rəsmi səfəri, səfər çərçivəsində imzalanmış sənədlər ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsində, mövcud potensialın daha dolğun reallaşdırılmasında böyük təkan olmaqla, dövlət başçılarının müəyyənləşdirdiyi prioritetlər üzrə qarşıya qoyulmuş vəzifələrin uğurlu icrası iqtisadi-ticari əməkdaşlığın inkişafına mühüm töhfə verəcəkdir.

# Azərbaycanın fövqəladə hallar naziri Polşada səfərdə olub



Fövqəladə hallar naziri, Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının həmsədri Kəmaləddin Heydərovun rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 4-də Polşada səfərdə olub.

Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Polşanın hökumət nümayəndələri ilə görüşlər keçirilib, səmərəli müzakirələr aparılıb.

Nazir Kəmaləddin Heydərov Polşanın xarici işlər naziri Yatsek Çaputoviç, sahibkarlıq və texnologiya naziri, Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Polşa tərəfindən həmsədri Yadviqa Emileviç, infrastruktur nazirinin müavini, Azərbaycan Respublikası - Polşa Respublikası nəqliyyat və logistika işçi qrupunun Polşa tərəfindən həmsədri Andjey Bittel ilə görüşüb.

Görüşlərdə Azərbaycan ilə Polşa arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya çərçivəsində müvafiq sahələr üzrə əməkdaşlığın inkişafı və komissiyanın növbəti iclasına hazırlıqla bağlı bir sıra məsələlər müzakirə edilib. Həmçinin iki ölkə arasında iqtisadi, ticarət və investisiya sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində keçirilən "dəyirmi masa"da ölkələrimiz arasında iqtisadi inkişafın hazırkı səviyyəsi müzakirə edilib, mövcud əlaqələrin daha da inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.

# Kənd təsərrüfatı naziri Azərbaycan Sahibkarlar Konfederasiyasının nümayəndə heyəti ilə görüşüb

Kənd təsərrüfatı naziri İnam Kərimov Azərbaycan Sahibkarlar Konfederasiyasının (ASK) nümayəndə heyəti ilə görüşüb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildiriblər ki, konfederasiyanın prezidenti Məmməd Musayev qurumun gördüyü işlər, regionlarda fəaliyyəti, aqrar sahədə mövcud vəziyyət, kənd təsərrüfatı sektorunun inkişaf perspektivləri barədə fikirlərini bölüşüb.

Assosiasiyaların inkişafında maraqlı olduqlarını deyən ASK prezidenti bu institutların daha da inkişaf etməsi üçün assosiasiya üzvlərinə müxtəlif təlimlər keçiriləcəyini deyib.

Nazir İnam Kərimov nazirliyin assosiasiyalarla əməkdaşlığa önəm verdiyini, bu məqsədlə qurumun tərkibində fermerlər, kooperativlər və assosiasiyalarla iş şöbəsinin yaradıldığını bildirib. Müxtəlif assosiasiyaların üzvləri ilə mütəmadi görüşlər keçirdiyini deyən nazir belə görüşlərin aqrar sahədə mövcud vəziyyətin dəyərləndirilməsi baxımından əhəmiyyət kəsb etdiyini vurğulayıb.



Görüşdə aqrar sektorun inkişafına dair müxtəlif təkliflər müzakirə olunub.

# Astanada Azərbaycan və Qazaxıstan arasında əmək münasibətləri müzakirə olunub




Qazaxıstanın paytaxtı Astana şəhərində səfərdə olan əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev qazaxıstanlı həmkarı Madina Abılkasımova ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan və Qazaxıstan arasında əmək münasibətləri və məşğulluq sahəsində olan imkanlar müzakirə edilib. Azərbaycanda aparılan islahatlar, yaradılan elektron sistemlər və görülən işlər barədə məlumat verilib. Qazaxıstan tərəfi əmək müqaviləsi qeydiyyatı sistemindəki Azərbaycan təcrübəsini böyük maraqla qarşılayıb və bu sahədə təcrübə mübadiləsinin həyata keçirilməsi razılaşdırılıb.

Qazaxıstanda məşğulluq, əmək birjalarının elektronlaşdırılması, rəqəmsallaşdırılma sahələrində irəliləyişlər əldə olunub. Azərbaycanın islahat proqramına daxil olan məşğulluq sahəsində yaradılacaq geniş portalda da bu təcrübədən istifadə ediləcəyi bildirilib.

Hər iki ölkədə əldə olunan yeniliklərin müzakirəsinə və tətbiqinə imkan yaradılacaq. Bundan əlavə sosial müdafiə və sosial təminat, yaşın artırılması, bədbəxt hadisələrdən sığorta mexanizmi ilə bağlı müzakirələr aparılıb və təcrübə mübadiləsinin həyata keçiriləcəyi qeyd edilib.

Əməkdaşlıq istiqamətlərini özündə əks etdirən memorandum layihəsinin hazırlanaraq Qazaxıstanın əmək və əhalinin sosial müdafiəsi nazirinin Azərbaycana səfəri zamanı imzalanması nəzərdə tutulub. Sənədə əsasən təcrübə mübadiləsi və imkanların araşdırılması üçün qarşılıqlı platformanın yaradılması planlaşdırılır.

Ümumilikdə Azərbaycan və Qazaxıstan arasında iqtisadi, sosial sahədə əməkdaşlıq inkişaf edir.

# Nazir müavini: Azərbaycanda "Kibertəhlükəsizlik üzrə Milli Strategiya" hazırlanır

Azərbaycanda "Kibertəhlükəsizlik üzrə Milli Strategiya" hazırlanır.

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə müsahibəsində nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə deyib.

O qeyd edib ki, kibertəhlükəsizlik sahəsində ölkəmizdə görülən işlərə ciddi diqqət yetirilir: **"Azərbaycan Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Qlobal Kibertəhlükəsizlik indeksində 193 ölkə arasında 48-ci mövqedədir. Bu da onu göstərir ki, ölkəmizdə həyata keçirilən informasiya-kommunikasiya texnologiyalarının inkişafı, yəni, informasiya cəmiyyətinin quruculuğu prosesində kibertəhlükəsizlik məsələlərinə də ciddi diqqət yetirilir. Ölkəmizin hazırlığı ən müasir tələblərə uyğun səviyyədədir. Bunun daha da inkişaf etdirilməsi, gücləndirilməsi üçün addımlar atılır".**




# "Aşura" mərasimlərində ənənəvilik və müasirlik prinsiplərinə riayət olunmalıdır



Sentyabrın 5-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Qafqaz Müsəlmanları İdarəsi (QMİ), Lənkəran Şəhər və Masallı Rayon İcra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə keçirilən seminar-müşavirələrdə "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda müzakirələr aparılıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbirlərdə DQİDK-nın, QMİ-nin məsul işçiləri, dini icma sədrləri, ictimaiyyət və KİV nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, dahi rəhbərin xatirəsini ehtiramla anıblar.

Lənkəranda keçirilən seminar-müşavirədə çıxış edən şəhər icra hakimiyyətinin başçısı Taleh Qaraşov ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayıb. Taleh Qaraşov Lənkəranda dini zəmində heç bir problemin olmadığını, məscidlərdə dini mərasimlərin keçirilməsi üçün lazımi şəraitin yaradıldığını diqqətə çatdırıb.

DQİDK-nın sədri Mübariz Qurbanlı çıxışında İslam dünyasının bir parçası olan Azərbaycanda milli-mənəvi irsimizin qorunması, təbliği, tədqiqi və onun gələcək nəsillərə ötürülməsi istiqamətində görülən ardıcıl tədbirlərdən danışıb, İslam dininin milli-mənəvi dəyərlərimizdə, adət-ənənələrimizdə, həyat tərzimizdə dərin izlər buraxdığını bildirib.

Qeyd olunub ki, hər bir xalqın adət-ənənələri onun mənsub olduğu dinlə sıx bağlıdır. Ölkəmizdə də İslam dini ilə bağlı mərasimlər formalaşıb. Bu mərasimlərin icrasında müəyyən dəyişikliklər olsa da, onların əsas məzmunu qalmaqdadır.

Azərbaycanda milli ruhun yüksəlməsində Ulu öndər Heydər Əliyevin böyük xidmətlərinin olduğunu qeyd edən komitə sədri dövlət müstəqilliyimizin bərpasından sonra Ümummilli liderin ölkəmizdə formalaşdırdığı azərbaycançılıq ideologiyasının adət-ənənələrimizin qorunması baxımından əhəmiyyətini vurğulayıb. Bildirilib ki, əsası Ulu öndər tərəfindən qoyulan dövlət-din siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla aparılır, Azərbaycanda milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasına dövlət səviyyəsində qayğı göstərilir.

İslam ölkələrində dövlət-din münasibətlərinin müxtəlif formalarda olduğunu söyləyən M.Qurbanlı Azərbaycanda bu münasibətlərin dünyəvilik prinsiplərinə söykəndiyini, ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin dini mərasimlərini azad şəkildə icra etdiyini, onların arasında dünyəvilik prinsiplərinə əsaslanan tarazlığın qorunub saxlandığını diqqətə çatdırıb.

Qeyd olunub ki, dini mərasimlər tariximizi, mədəniyyətimizi, adət-ənənələrimizi və həyat tərzimizi əks etdirməlidir. Dini mərasimlər arasında Məhərrəmlik mərasimləri də tarixi adət-ənənələrimizə söykənir. Müsəlman dünyasında Məhərrəm ayının başlanması və "Aşura" günü ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının "Fətva" verdiyini deyən komitə sədri Məhərrəmlik mərasimləri zamanı "Fətva"nın müddəalarına ciddi riayət olunmasının, dini mərasimlərin yalnız məscidlərdə keçirilməsinin vacibliyini bildirib.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxışında qeyd edib ki, ölkəmizin cənub bölgəsinin əhalisi həmişə dövlətimizə və dövlətçiliyimizə, milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə sadiq olub.

Milli-mənəvi dəyərlərimizin bir hissəsi olan dinimizin, dilimizin qorunmasında icmaların rolunu qeyd edən A.Paşazadə müstəqillik illərində dini mühitin zənginləşdirilməsi istiqamətində mühüm işlərin görüldüyünü, bu sahəyə dövlət tərəfindən diqqət və qayğı göstərildiyini söyləyib.

QMİ-nin Qazılar Şurasının "Fətva"sı barədə məlumat verən Şeyxülislam Allahşükür Paşazadə "Aşura" günü uşaqların məscidlərə gəlməsinin məqsədəuyğun olmadığını deyib.



Lənkəran Rayon Ağsaqqallar Şurasının sədri Sərhad Məmmədov rayonda dini mərasimlərin icrası zamanı ənənəvilik və müasirlik prinsiplərinə, adət-ənənələrimizə ciddi riayət olunduğunu bildirib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Həmin gün Masallıda eyni mövzuda keçirilən seminar-müşavirədə rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov, DQİDK-nın sədri Mübariz Qurbanlı, QMİ-nin sədri Allahşükür Paşazadə, Masallı şəhərindəki "Cümə" məscidi dini icmasının sədri Mirqabil Hüseynov çıxış ediblər.

Müzakirələr zamanı dini mərasimlərin, o cümlədən "Aşura" mərasiminin icrası zamanı ənənəvilik və müasirlik prinsiplərinə riayət olunması ilə bağlı müxtəlif təkliflər səsləndirilib.

Seminar-müşavirənin sonunda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Tədbirdə Milli Məclisin deputatları Cavanşir Paşazadə və Nəriman Əliyev, Prezident Administrasiyasının məsul işçisi Dəyanət Abdullayev iştirak ediblər.

# Yüksək bal toplayan 10 xaçmazlı tələbəyə fərdi təqaüd kartları verilib

Milli Məclisin deputatı İlham Əliyev Xaçmaz rayonundan yüksək balla ali məktəblərə qəbul olunan tələbələrlə görüşüb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, görüş zamanı yüksək bal toplayan 10 tələbəyə Milli Məclisin deputatı adından fərdi təqaüd kartı təqdim olunub. Həmin tələbələr təhsil müddətində hər ay 100 manat məbləğində təqaüd alacaqlar.

Deputatın təşəbbüsü ilə həyata keçirilən bu ənənəvi aksiya 8 ildir davam etdirilir. Bu illər ərzində, ümumilikdə, 81 nəfərə fərdi təqaüd kartı verilib.



Rayon rəhbərliyinin, təhsil işçilərinin və yüksək bal toplayan tələbələrin valideynlərinin də iştirak etdiyi görüşdə bildirilib ki, bu il Xaçmaz rayonu üzrə ali məktəblərə 414 nəfər qəbul olub. Onlardan 12-si 600-dən yuxarı bal toplayıb. Xaçmaz şəhər akademik Zərifə Əliyeva adına 8 nömrəli məktəb-liseyin məzunu Jalə Rəcəbova isə 700 bal toplayaraq maksimum nəticə göstərib.

Milli Məclisin deputatı İlham Əliyev və Xaçmaz rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev tələbələri təbrik edərək, onlara uğurlar arzulayıblar.

# Ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan Qubadlı gəncləri ilə görüş

Sentyabrın 5-də Qubadlı Rayon İcra Hakimiyyətində qəbul imtahanlarında yüksək bal toplayan rayon gəncləri ilə görüş keçirilib. Görüşdə rayon rəhbərliyi, idarə, müəssisə və təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri, valideynlər və məzunlar iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tələbə adını qazanan gəncləri təbrik edən rayon icra hakimiyyətinin başçısı Malik İsaqov ölkədə təhsilə göstərilən dövlət qayğısından danışıb. Bildirib ki, Ulu öndər Heydər Əliyev hər zaman təhsilə böyük önəm verib. Ölkəmizdə təhsilin inkişafı bu gün Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bütövlükdə son illər təhsilin inkişafına xidmət göstərən bir çox dövlət proqramı qəbul edilib. Bu proqramlar məktəbəqədər təhsil, texniki peşə, orta ümumtəhsil və ali məktəblərin inkişafını nəzərdə tutan dövlət əhəmiyyətli fəaliyyət istiqamətlərini müəyyənləşdirir.



Malik İsaqov qeyd edib ki, rayon üzrə 32 ümumtəhsil məktəb fəaliyyət göstərir. Onlardan 14-ü yeni tikilib, 18-i əsaslı təmir olunub. Eyni zamanda, 2017/2018-ci tədris ilində Qubadlı rayon Xanlıq kənd ümumi orta məktəbi üçün yeni bina tikilərək şagird və müəllim kollektivinin istifadəsinə verilib. Cari ildə 457 məzundan 390-ı ali məktəbə qəbul imtahanlarına sənəd verib, onlardan 285-i ali məktəblərə qəbul olub. Qəbul imtahanlarında iştirak edən 48 məzun 500-600 arası, 27 məzun isə 600-dən yuxarı bal toplayıb. Bu il Qubadlı rayonu üzrə qəbul 73 faiz təşkil edir. Ötən il isə rayon ali məktəblərə qəbul imtahanlarının nəticəsinə görə respublika üzrə 1-ci yerdə olub. Bütün bunlar Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın həyata keçirdiyi uğurlu təhsil siyasətinin nəticəsidir.

Sonra çıxış edən Qubadlı rayon Təhsil Şöbəsinin müdiri Fuad Bədəlov, valideynlər, məzunlar və digərləri gənclərlə görüşün təşkilinə, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Sonda yüksək bal toplamış gənclərə mükafatlar verilib.

# Prezident İlham Əliyevin Rusiyaya səfəri iki ölkə arasında münasibətlərin inkişafına yeni təkan verəcək

*Ekspertlər hesab edirlər ki, Azərbaycan ilə Rusiya arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib*



**Sədaqət Vəliyeva:** Soçidə səsləndirilən fikirlər Azərbaycan-Rusiya münasibətlərinin yeni mərhələyə yüksəldiyini göstərir



**Tahir Mirkişili:** İqtisadi cəhətdən Rusiya bazarı Azərbaycan iqtisadiyyatı üçün böyük və ənənəvi bazardır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri yerli və beynəlxalq medianın diqqət mərkəzindədir. Məlumdur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri formalaşdırıb. Regionda sabitləşdirici aktor kimi çıxış edən Azərbaycan, eyni zamanda, beynəlxalq miqyasda əməkdaşlıq və təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirir. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə daha çox regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir. Hazırda Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında davamlı yüksəlişə malikdir. Şübhəsiz, bütün bunların əsasında güclü siyasi iradəyə söykənən müstəqil strateji kurs dayanır.

Bu mənada, Azərbaycanın xarici siyasət kursunda Rusiya Federasiyası ilə qarşılıqlı faydalı münasibətlər mühüm yer tutur. İki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir. Ekspertlər bu səfərin iki ölkə arasında müxtəlif sahələri əhatə edən münasibətlərin inkişafı baxımından mühüm əhəmiyyətə malik olduğunu bildirirlər. Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib ki, Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri çərçivəsində Soçidə səsləndirilən fikirlər və imzalanan müqavilələr Azərbaycan-Rusiya münasibətlərinin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini göstərir. S.Vəliyeva bildirib ki, Azərbaycan-Rusiya münasibətlərinin bütün spektri üzrə xarakterik olan yüksək səviyyəli qarşılıqlı siyasi anlaşma və strateji əməkdaşlıq ruhu ikitərəfli iqtisadi əlaqələrin inkişafı üçün əlverişli şərait yaradır: **“2017-ci ildə iki ölkə arasında əmtəə dövriyyəsi 35 faiz artaraq 2,5 milyard dollara çatıb. Rusiyanın Azərbaycana birbaşa kapital qoyuluşu 1,5 milyard dollar təşkil edib ki, hazırda ölkəmizdə təxminən 700 birgə müəssisə fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycanda Rusiyanın bir çox enerji şirkətləri uğurla fəaliyyət göstərir. Həmçinin iki ölkənin hərbi-texniki əməkdaşlığı inkişaf edir. Elə Azərbaycan tərəfindən Rusiyadan alınmış hərbi təyinatlı məhsulların dəyərinin 5 milyard dolları keçməsi bu sahədəki dinamizmin göstəricisidir”.**

Millət vəkili qeyd edib ki, bütün bunlarla yanaşı, Azərbaycanla Rusiya qlobal əhəmiyyətli layihələrin də həyata keçirilməsində birgə işləyirlər: **“Məhz Qərbi Avropa bazarlarını Asiya istehsalçıları ilə birləşdirəcək, Cənubi Asiya və Yaxın Şərqdən gələn yüklərin Avropaya daşınmasını xeyli sürətləndirəcək, ümumi uzunluğu 7 min kilometrdən artıq olan beynəlxalq Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması haqqında ortaq fikirlər və fəaliyyətlər söylənilənlərin əyani sübutudur. Bu mənada Rusiya və Azərbaycanın birgə nəqliyyat layihələri çoxsaylı ölkələri əhatə edəcək, ölkələrimizin tranzit imkanları artacaq, minlərlə yeni iş yeri yaradılacaq”.**

S.Vəliyeva əlavə edib ki, **“Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşların münasibətləridir və iki ölkənin prezidentləri arasındakı müntəzəm əlaqələr dövlətlərarası münasibətlərə xüsusi dinamizm verir”.**

**“İqtisadi cəhətdən Rusiya bazarı Azərbaycan iqtisadiyyatı üçün böyük və ənənəvi bazardır. Bizim qeyri-neft məhsulları ixracının 35%-ə yaxını və kənd təsərrüfatı məhsulları ixracının 90%-ə yaxını Rusiyayadır. İxrac potensialının artması perspektivi böyükdür və Azərbaycan sahibkarları bundan getdikcə daha çox istifadə edəcəklər. Azərbaycan isə Rusiya üçün digər böyük bazarlara çıxış yolunda mühüm ölkədir”.** Bu fikirləri isə Milli Məclisin deputatı Tahir Mirkişili deyib.

T.Mirkişili bildirib ki, Rusiya-Türkiyə, Rusiya-İran, Rusiya-Şərq iqtisadi münasibətlərində Azərbaycanın yaratdığı infrastruktur imkanları və Azərbaycanın bu ölkələrlə uğurlu siyasi və iqtisadi münasibətləri Rusiya üçün çox cəlbedicidir və mühüm imkandır. Eyni zamanda, Avropa Birliyi bazarlarına hər iki ölkənin qaz ixracı imkanları Rusiyanı Azərbaycanla bu mühüm bazarda əməkdaşlıq etməyə sövq edir. **“Bütün bu nüanslar isə Rusiya və Azərbaycan iqtisadi münasibətlərinin bərabərhüquqlu, qarşılıqlı fayda gətirən və inteqrasiya oluna bilən münasibətlər olduğunu deməyə imkan verir. İmzalanan çoxsaylı və çoxsahəli müqavilələr isə hər iki ölkə üçün iqtisadi cəhətdən mühüm perspektivlər vəd edir”**, - deyə deputat vurğulayıb.

**Nardar BAYRAMLI**

# Arzu Nağıyev: Rusiya ilə Azərbaycan arasında tarixi dostluq və əməkdaşlıq əlaqələri mövcuddur



Rusiya ilə Azərbaycan arasında tarixi dostluq və əməkdaşlıq əlaqələri mövcuddur. Demək olar ki, bu, bütün sahələri əhatə edir. İstər iqtisadi, istər siyasi, mədəni və hərbi sahələrdə ikitərəfli tərəfdaşlıq əlaqələri var.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Arzu Nağıyev bildirib. O qeyd edib ki, Azərbaycan və Rusiya prezidentlərinin Soçi görüşündə imzalanan çoxsaylı sənədlər də bunu deməyə əsas verir. Hər iki dövlət başçısının şəxsi münasibətləri də yüksək səviyyədə olduğu üçün bu proseslər dinamik inkişaf edir. Bir sıra sahələrdə münasibətlər artıq strateji əhəmiyyətlidir. Azərbaycan Rusiya hərbi-sənaye kompleksi ilə sıx əlaqəlidir və ən mühüm istehlakçılardan biridir.

A.Nağıyev bildirib ki, Azərbaycanın daxili və xarici siyasətində ən prioritet istiqamət məhz Dağlıq Qarabağ münaqişəsinin həlli olduğu üçün və Rusiya da ATƏT-in Minsk Qrupunun həmsədr dövləti kimi Ermənistana təzyiq mexanizminə və bu problemin həllində mühüm rola malikdir. Siyasi ekspertin qənaətincə, bu istiqamətdə işlər davam etdirilməlidir. **“Eyni zamanda, Azərbaycan tranzit bir dövlət kimi, ticarət və digər dəhlizlərə malik olduğuna görə, Rusiya üçün əhəmiyyət kəsb edir. Bununla yanaşı, hər iki ölkə birgə sərmayə qoyuluşu ilə mühüm iqtisadi layihələr həyata keçirə bilərlər”,** - deyə A. Nağıyev vurğulayıb. O qeyd edib ki, bu layihələr həm neft-qaz, həm də qeyri-neft sahələrinin inkişafına müsbət təkan verə bilər.

# Moskva ilə Bakının münasibətləri genişmiqyaslı qarşılıqlı fəaliyyət formatındadır



Bu dəfə Soçidə aparılan danışıqlar bir daha göstərdi ki, Moskva ilə Bakının münasibətləri təkcə Qarabağ münaqişəsinin nizamlanması və ya ikitərəfli əməkdaşlıq mövzuları ilə məhdudlaşmır. Bu münasibətlər həm də postsovet məkanının hüdudlarından kənardakı aktorların cəlb edildiyi daha genişmiqyaslı qarşılıqlı fəaliyyət formatındadır.

Rusiyalı məşhur ekspert, Siyasi və İqtisadi Kommunikasiyalar Agentliyinin aparıcı analitiki Mixail Neyjmakov bu fikirləri AZƏRTAC-a müsahibəsində sentyabrın 1-də Azərbaycan dövlətinin başçısı İlham Əliyevin Soçiyə səfərinin və Rusiya Prezidenti Vladimir Putin ilə aparılmış danışıqların yekunlarını şərh edərkən söyləyib.

M.Neyjmakov deyib: **“İlham Əliyev ilə Vladimir Putinin görüşləri müntəzəm keçir. Lakin prezidentlərin son bir ildə bundan əvvəlki şəxsi görüşləri sammitlər və digər beynəlxalq tədbirlər çərçivəsində olmuşdu. Rusiya və Azərbaycan prezidentlərinin budəfəki danışıqları 2017-ci ilin iyul ayından sonra belə tədbirlərdən kənarda keçirilmiş ilk danışıqlardır. Bu, çox vacibdir. Məsələn, məhz İlham Əliyevin Rusiyaya budəfəki səfərinin gedişində iqtisadi sahədə, o cümlədən neft-qaz sahəsində Rusiya-Azərbaycan əməkdaşlığına dair 17 sənəd imzalanıb. İqtisadi əməkdaşlığın fəallaşdırılması heç də həmişə siyasi yaxınlaşmanın artmasına avtomatik surətdə zəmanət vermir, lakin bu, əlbəttə, siyasi əməkdaşlıq üçün əlavə təkan ola bilər”.**

Rusiyalı ekspert Soçi görüşünün yekunlarına əsasən, hər iki Prezidentin mətbuat üçün bəyanatlarında xatırlatdıqları beynəlxalq “Şimal-Cənub” nəqliyyat dəhlizi layihəsinə toxunaraq deyib: **“Əlamətdar haldır ki, son bir ildə Azərbaycan və Rusiya prezidentləri arasında görüşlər daha geniş beynəlxalq tədbirlər, məsələn, 2017-ci ilin noyabrında Tehranda Azərbaycan, Rusiya və İranın dövlət başçılarının danışıqları və ya 2018-ci ilin avqustunda Aktauda Xəzər Sammiti çərçivəsində keçirilib. Bununla belə, Moskvanın və Bakının birlikdə qoşulduğu qarşılıqlı fəaliyyətin bu cür geniş formatları nə qədər çox olsa, iki dövlətin münasibətlərində əlavə “aparıcı konstruksiyalar” da bir o qədər çox olur, bu isə onların dayanıqlılığını artıra bilər”.**

Siyasi və İqtisadi Kommunikasiyalar Agentliyinin aparıcı analitiki görüşün yekunlarına əsasən imzalanmış müqavilələrin əhəmiyyətindən söhbət açaraq deyib: **“Kifayət qədər uzunmüddətli perspektivdə ölkələrimizin iqtisadi tərəfdaşlığının istiqamətlərini müəyyən edən sənədi - iki dövlətin hökumətləri arasında 2024-cü ilə qədər əməkdaşlıq proqramını xüsusi qeyd etmək olar. Səciyyəvi haldır ki, həmin proqramda ticarətdə mövcud baryerlərin aradan qaldırılması və nəqliyyat potensialının inkişafı sahəsində əməkdaşlığın dərinləşdirilməsi nəzərdə tutulur, bu isə yuxarıda qeyd etdiyimiz “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizi çərçivəsindəki layihələr üçün çox vacibdir. Ümumiyyətlə, belə danışıqların gedişində sənədlər ətrafında yaranan rezonans deyil, iki dövlətin tərəfdaşlığının durmadan inkişaf etməsi üçün həmin sənədlərin əhəmiyyəti vacibdir. Bakı və Moskva üçün əməkdaşlığın genişləndirilməsi potensialı əsla tükənməyib”.**

# Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Astanada keçirilən beynəlxalq konfransda çıxış edib




Qazaxıstanın Astana şəhərində “Əfqanıstanda qadınların hüquq və imkanlarının genişləndirilməsi” mövzusunda regional konfrans keçirilir.

Konfransda Əfqanıstanın inkişafında qadınların rolu, onların təhsil səviyyəsinin yüksəldilməsi, əmək bazarında fəal iştirakının təmin olunması vasitəsilə ölkənin sosial-iqtisadi, təhsil sahəsində hüquq və imkanlarının genişləndirilməsi, məşğulluğun artırılması, regional əməkdaşlıq vasitəsilə qadınların iqtisadi imkanlarının inkişafına dair məsələlər müzakirə olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə Qazaxıstan Parlamenti Senatının beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri, Xarici İşlər Nazirliyinin fəaliyyətinə dair İctimai Şuranın sədri Dariga Nazarbayeva, Dövlət Katibi Gülşara Abdukalikova, Qazaxıstan Xarici İşlər naziri Kayrat Abdraxmanov və digər siyasətçilərin, beynəlxalq təşkilatların regional rəhbərlərinin və qadın hüquqları müdafiəçilərinin iştirak etdiyi konfransda ölkəmizi Əmək və Əhalinin Sosial müdafiəsi naziri Sahil Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.

“Əfqan qadınların iqtisadi imkanlarının genişləndirilməsi vasitəsilə dayanıqlı iqtisadi artım” mövzusunda keçirilən panel sessiyasında çıxış edən Sahil Babayev gender bərabərliyinin təmin olunması sahəsində Azərbaycanda aparılan fəal dövlət siyasəti barədə məlumat verib. Azərbaycanda qadın hüquqlarının geniş şəklidə qorunduğunu, bu sahədə tarixinin mövcud olduğunu deyən nazir hələ 1918-ci ildə, bu il 100 illiyi qeyd edilən, İslam dünyasında ilk dünyəvi respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlara seçki hüququ verildiyini diqqətə çatdırıb.

Sahil Babayev bildirib ki, bütün sahələrdə gender bərabərliyinin təmin olunması ilə bağlı əsas beynəlxalq sənədləri ratifikasiya edən Azərbaycanda qadınlar əhalinin 50,1 faizini təşkil edir. Ölkədə qadınların əmək bazarında kişilərlə bərabərhüquqlu iştirakına imkan yaradılması onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunması ilə nəticələnir. Bu gün Azərbaycanda hər 100 təhsil alanın orta hesabla 47-si, işçi qüvvəsinin 48,6 faizi, məşğul əhalinin 48,1 faizi, elmi işçilərin 53,6 faizi qadınlardır. Seçkili, idarəetmə və məhkəmə orqanlarında, təhsil sahəsində, əmək bazarında qadınlar layiqincə təmsil olunurlar.

Nazir vurğulayıb ki, Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğalı, nəticədə bir milyondan çox qaçqın və məcburi köçkünün olması ümumən regionda sosial inkişafa, habelə qadınların sosial hüquqlarının tam təmin olunmasına ciddi maneə yaradır.

Sahil Babayev əfqan qadınlarının insan hüquqlarının müdafiəsi, sağlamlıq və təhlükəsizlik, habelə iqtisadi hüquqlarının təmin olunması ilə bağlı BMT-nin təşəbbüsünün Azərbaycan tərəfindən dəstəkləndiyini deyib. Nazir iqtisadi islahatlarda gender aspektinin nəzərə alınması, qadınların məşğulluq problemlərinin həlli, onların sosial müdafiəsinin gücləndirilməsi sahəsində Əfqanıstan Hökuməti ilə əməkdaşlığın mümkünlüyünü və bunun əhəmiyyətli olacağını diqqətə çatdırıb. O, xüsusilə özünüməşğulluq proqramının icrası sahəsində ölkəmizin təcrübəsinin Əfqanıstanla bölüşülməsinin və bu sahədə lazımi metodiki dəstəyin verilməsinin mümkünlüyünü qeyd edib.

İslam Əməkdaşlıq Təşkilatının Bakıda yaradılacaq Əmək Mərkəzi əfqan qadınlarının məşğulluq potensialı yüksək olan sahələr üzrə müvafiq bilik və bacarıqlara yiyələnməsi işlərində də yaxşı imkanlar yarada biləcəyini qeyd edən nazir Azərbaycan və Əfqanıstan arasında yaradılacaq hökumətlərarası birgə işçi qrupun fəaliyyət gündəliyində digər məsələlərlə yanaşı, əfqan qadınların sosial müdafiəsinin gücləndirilməsi sahəsində əməkdaşlığın da olmasını təklif edib.

Sahil Babayev Əmək Mərkəzi vasitəsilə əfqan qadınlarına həm məsafəli, onlayn, həm də Bakıda müxtəlif növ xidmətlər göstərə bilmək, onların səriştə və bacarıqlarının artırılmasına, təhsil sahəsində dəstək göstərmək, əmək bazarına inteqrasiya baxımından təlim və treninqlərinin keçirə biləcəyini də təklif etdi.

Daha unikal bilik və bacarıqlar sayəsində qlobal problemləri həll etmək məqsədilə Azərbaycanın “İnsan kapitalını inkişaf etdirməklə daha yaxşı gələcək qurmaq” mövzusunda “Expo 2025”ə ev sahibliyi etmək təşəbbüsünü irəli sürdüyünü vurğulayan nazir konfrans iştirakçılarını Azərbaycanı bu təşəbbüsdə dəstəkləməyə dəvət edib.

Konfransın sonunda Əfqanıstan qadınlarının hüquqlarının genişləndirilməsi sahəsində bəyannamə qəbul olundu.

# Günay Əfəndiyeva: Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu türk dünyasının mədəni dəyərləri ilə bağlı müxtəlif layihələr reallaşdırıb



Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva sentyabrın 2-3-də Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşündə və III Dünya Köçəri Oyunlarının açılış mərasimində iştirak edib.

Fonddan AZƏRTAC-a bildiriblər ki, G.Əfəndiyeva, həmçinin Sammit çərçivəsində təşkil olunan Bişkekdə Türk Şurasına üzv ölkələrin Xarici İşlər Nazirləri Şurasının görüşündə çıxış edib, uzun müddətdən bəri gözlənilən tədbirin təşkili və qonaqpərvərliyə görə minnətdarlığını bildirib.

Günay Əfəndiyeva türk dünyasının maddi və mədəni irsinin zənginliyindən, bu irsin qorunmasının, öyrənilməsinin və beynəlxalq arenada təbliğ edilməsinin əhəmiyyətindən danışıb. O, türkdilli xalqların qədim şifahi və yazılı ədəbiyyat nümunələri, folkloru, adət-ənənələri, möhtəşəm memarlıq abidələrinin mühafizəsinin önəmini diqqətə çatdırıb, yenicə fəaliyyətə başlamış Fondun bu istiqamətdə gördüyü işlərdən, həyata keçirdiyi tədbir, konfrans, simpozium, sərgilərdən bəhs edib. Vurğulanıb ki, müəyyən çətinliklərlə üzləşməsinə baxmayaraq, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu qısa zaman ərzində türk dünyası mədəniyyəti, zəngin tarixi, milli mənəvi dəyərləri əhatə edən müxtəlif layihələrə imza atıb. Həyata keçirilən bir sıra layihələr Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammitində iştirak edən Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə dövlət başçılarının imzaladığı Bəyannamədə öz əksini tapıb.

Çıxışı zamanı rəhbərlik etdiyi Fondun türk dünyasına xas maddi irsin mühafizəsinə xüsusi diqqət ayırdığını, məhvolma təhlükəsi ilə qarşılaşan tarixi abidələrin siyahısının hazırlanılmasına başladığını vurğulayan G.Əfəndiyeva, həmçinin nümunə olaraq işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlarda tarixi və mədəniyyət abidələrinə vurulan zərər haqqında Fond tərəfindən həyata keçirilən tədqiqat işlərindən bəhs edib.

G.Əfəndiyeva Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu üçün bina ayrıldığına görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevə öz dərin təşəkkürlərini bildirib və binanın açılışının gələn il Bakıda təşkil ediləcək Türk Şurasının VII Sammiti çərçivəsində keçirilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.



Sammit çərçivəsində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyəti ilə bağlı sənədlər imzalanıb.

İclasda Qırğız Respublikası xarici işlər naziri Erlan Abdıldayev, Qazaxıstan Respublikası xarici işlər naziri Kayrat Abduraxmanovo, Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu, Macarıstan Respublikası xarici işlər naziri Peter Siyarto, Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Ramiz Həsənov, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, TÜRKSOY, TürkPA, Türk Akademiyasının rəhbərləri iştirak ediblər.

# Moskvada MDB ölkələri Ali Maliyyə Nəzarəti Orqanları Rəhbərləri Şurasının XVIII sessiyası keçirilib



Moskvada MDB ölkələri Ali Maliyyə Nəzarəti Orqanları (AMNO) Rəhbərləri Şurasının XVIII sessiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov tədbirdə iştirak edib.

Rusiya Hesablama Palatasının sədri Aleksey Kudrin tədbiri açaraq sessiyanın mövzusu barədə məlumat verib, MDB-yə üzv ölkələrin çoxtərəfli və ikitərəfli əməkdaşlığının nəticələrindən və ali audit qurumlarının fəaliyyətindən danışıb. O, Şuranın XVII sessiyasının Bakıda yüksək səviyyədə təşkilinə və ötən dövrdə quruma uğurla sədrlik etdiyinə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirib.

Vüqar Gülməmmədov Şuranın ötən dövrdə fəaliyyətinə dair hesabat məruzəsi ilə çıxış edib.

Sessiyada növbəti bir il üçün quruma sədrlik Rusiyaya təhvil verilib.

Tədbir çərçivəsində "Dövlət idarəçiliyinin inkişafında və səmərəliliyinin artırılmasında informasiya texnologiyalarının rolu" mövzusunda tematik sessiya keçirilib.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov sessiyada çıxış edərək bildirib ki, Azərbaycan dinamik surətdə inkişaf edir. O, MDB ali maliyyə nəzarəti qurumlarının sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətinə toxunan Vüqar Gülməmmədov dövlət və icmal büdcələrinə rəylərin hazırlanması, büdcədənkənar fondlar üzrə nəzarət tədbirlərinin keçirilməsi, audit yoxlamaları zamanı informasiya texnologiyalarından istifadə olunmasının əhəmiyyətindən danışıb.

Sessiya çərçivəsində Azərbaycan Hesablama Palatasının sədri Vuqar Gülməmmədov Qırğızıstan Hesablama Palatasının sədri Ulukbek Maripov ilə görüşüb. Görüşdə əlaqələrin inkişafından söhbət açılıb və iki ölkənin Hesablama palataları arasında əməkdaşlıq haqqında saziş imzalanıb.

# Azərbaycan daha bir möhtəşəm söz-sənət festivalına ev sahibliyi edəcək

*Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı poeziyasevərləri bir araya gətirəcək*



Azərbaycan daha bir möhtəşəm söz-sənət bayramına ev sahibliyi edəcək. Bu dəfə söz sərrafları və musiqi biliciləri sentyabrın 27-dən 30-dək Azərbaycanda Nəsimi poeziyasının işığına toplaşacaqlar. Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə dörd gün davam edəcək möhtəşəm Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalına ciddi hazırlıq işləri gedir. Bu ərəfədə AZƏRTAC-ın müxbiri festivalın əlaqələndiricisi, Əməkdar incəsənət xadimi Cahangir Səlimxanovla görüşüb və onun dediklərini oxucularla bölüşür.

### FESTİVALIN İDEYASI HEYDƏR ƏLİYEV FONDUNUN VİTSE-PREZİDENTİ LEYLA ƏLİYEVAYA MƏXSUSDUR

Cahangir Səlimxanov deyib ki, filosof ruhlu şairin adını daşıyan festivalın cəmiyyətə verəcəyi mesaj çoxşaxəlidir. Festivalın ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevadır.

Böyük Azərbaycan şairi və mütəfəkkiri, anadilli Azərbaycan poeziyasının banilərindən biri olan İmadəddin Nəsiminin adını daşıyan festivala 4 aydan çox müddətdə hazırlaşdıqlarını söyləyən C.Səlimxanov qeyd edib ki, Nəsimi sufiliyin hürufi qolunun fəlsəfəsini təbliğ edən lirik və mistik seirlərin müəllifidir. Onun poeziyasının əsas mövzuları İnsan, Kainat, Məhəbbət və İlahidir. Nəsimi yaradıcılığı sufi-hürufi fəlsəfəsini məcazi mənada və alleqorik formada təbliğ etməklə, insanın dünya və kainatla vəhdətini göstərir, ruhun kamilləşməsinə aparan yolları izah edir. Şair əsərlərində ilahi məhəbbətdən ilham alaraq, özünü və ilahini dərk etmiş, ruhən yüksəlmiş Bəşər övladını tərənnüm edir. 2017-ci ildə Parisdə UNESCO-nun baş qərargahında Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin və Azərbaycanın UNESCO yanında daimi nümayəndəliyinin birgə təşkilatçılığı ilə şair və mütəfəkkir İmadəddin Nəsiminin vəfatının 600-cü ildönümü ilə əlaqədar tədbir keçirilib.

### "SİMADAN ASİMANA"

Festivalda İmadəddin Nəsiminin bir şəxsiyyət, poetik düha kimi dünyagörüşü tərənnüm ediləcək. Həm də festival boyu dahi şairin bu gün yaşasaydı, onu hansı mənəvi problemlər, mənəvi axtarışlar düşündürərdi sualına cavab tapmağa çalışacağıq. Buna görə də bu festival təkcə keçmişə yox, həm də gələcəyə ünvanlanıb. Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalında məzmunca çox fərqli tədbirlər gözlənilir. Festivalın iki şüarı var - "Simadan asimana" və "Zərrə mənəm, günəş mənəm".

### "ŞÖVQ MƏQAMLARI"

Festivalla bağlı məlumat verən C.Səlimxanov deyib ki, şeir bayramında Nəsiminin özü, şeriyyəti ilə bağlı bir neçə tədbir keçiriləcək. Bu tədbirlərdən biri İçərişəhərdə olacaq. Bu, bir neçə kiçik təbirlərdən ibarət böyük layihədir. Layihə "Şövq məqamları" adlanır. İçərişəhərdə müxtəlif məkanlarda hər kəs Nəsimi poeziyası ilə rastlaşacaq. Bunun üçün müasir texnologiyanın imkanlarından istifadə ediləcək. Bu mobil tətbiq Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən hazırlanacaq.

Bundan başqa, festival günlərində bir neçə rəssamın əsərləri, instalyasiyaları, video, elektron işləri nümayiş olunacaq. Azərbaycan Yazıçılar Birliyinin nəzdində fəaliyyət göstərən "Xəzər" poeziya birliyi ilə birgə söz adamları tərəfindən Nəsiminin qəzəllərinə, tuyuqlarına nəzirələrin, təxmislərin yazılması nəzərdə tutulub. O vaxtlar belə ənənə vardı və biz bunu bir növ bərpa edirik. Biz onları qeyri-adi tərzdə təqdim etməyi düşünürük. Yaxud Səlim Babullaoğlunun şeirlərini şəkil formasında, qrafik işi kimi təqdim edəcək "Vizual poeziya" layihəsi var. Göründüyü kimi, bütün bunlar şeiriyyətlə bağlıdır. Bundan başqa, gənc şairə Nərminə Məmmədzadə də videolayihə hazırlayıb.

### FRANSANIN MƏŞHUR MUSİQİ QRUPU - "SÜKUTUN KEŞİKÇİLƏRİ" ŞAMAXIDA ÇIXIŞ EDƏCƏK

Festival günlərində filosof şairin dünyaya göz açdığı qədim Şamaxı şəhərinin tarixi yerləri ziyarət olunacaq və Nəsimi heykəli önündə tədbir keçiriləcək. Şamaxı Tarix-Diyarşünaslıq Muzeyinin yeni ekspozisiyasının açılışı olacaq. Leyla Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən XVII əsr Avropa səyyahlarının nadir, orijinal qravüraları tapılaraq ölkəmizə gətirilib. Şamaxının 1681-1696-cı illərə aid olan və üç ayrı-ayrı müəllifə məxsus təsvirləri Fond tərəfindən rayon Diyarşünaslıq Muzeyinə hədiyyə olunacaq.

Sonra Şamaxı rayonunun Meysəri kəndində "Söz" layihəsi çərçivəsində Nəsimiyə həsr edilmiş şeir müsabiqəsinin finalçılarının şeirləri səsləndiriləcək və tədbir muğam ifaçılarının çıxışı ilə daha da rəngarəngləşəcək. Eyni zamanda, "Həssas Dəb - Etik Dizayn Məntəqəsi" açılacaq və modelyerlərin işlərinin satışı təşkil ediləcək. Bütün bunların gələcəkdə turizmin inkişafına töhfə verəcəyini düşünürük. Həmçinin burada Fransanın məşhur musiqi qrupu - "Les Gardiens du Silence" ("Sükutun keşikçiləri") geniş konsert proqramı ilə çıxış edəcək.

Azərbaycan Milli Elmlər Akademiyasının Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasında isə "Ulduzlar önündə" adlı musiqi proqramı təqdim olunacaq.

### HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ "77 MİLYON RƏSM" ADLI SƏRGİ AÇILACAQ

Festival çərçivəsində ADA Universitetində müəllim və tələbələrlə görüş keçiriləcəyini söyləyən Əməkdar incəsənət xadimi deyib ki, eyni zamanda, Azərbaycan Xalça Muzeyinin kolleksiyasına yeni daxil olunan qədim xalçalar nümayiş etdiriləcək. Heydər Əliyev Mərkəzində Mixael Hessinin "Nəsimi dühası müasir kontekstlərdə" mövzusunda mühazirəsi dinləniləcək. Həmçinin müxtəlif ölkələri təmsil edən rəssamların "Live Life", "Hürufiyyə", "77 milyon rəsm" adlı sərgiləri açılacaq. Kamera və Orqan Musiqi salonunda da "Silsilə" musiqi layihəsi təqdim olunacaq.

Festivalda 6 müxtəlif ölkədən və Azərbaycandan qatılan rəssamlar divar üzərində rəsmlər çəkəcəklər. Belə ki, Qaladakı anbarda "Açılan Divar" Urban/Community Art layihəsi reallaşacaq. Bu tikili rəssamların ixtiyarına veriləcək və onlar buranı yeni bir məkana çevirəcəklər.

### QALADA "DAŞDA HƏKK OLUNMUŞ MUSİQİ" VƏ "TULLANTIDAN-SƏNƏTƏ" ADLI İNCƏSƏNƏT SİMPOZİUMLARI

Cahangir Səlimxanov deyib ki, bu günlərdə şəhərimizin qonaqları və paytaxt sakinləri bir-birindən maraqlı tədbirlərin şahidi olacaqlar. İçərişəhər ərazisində "Qız qalası" İncəsənət festivalı, Qalada "Daşda həkk olunmuş musiqi" və "Tullantıdan-Sənətə" adlı incəsənət simpoziumları, Alov Qüllələri üzərində sənət əsərləri, Heydər Əliyev Mərkəzində Nandan Qautam ilə bədii yoqa məşğələsi, Azərbaycan Marionet Teatrında UrbanNomadMixesin poeziya tamaşası, Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində "İmmolitio", pyes oxunuşu (müəllifi Leyla Bəyim), Şirvanşahlar Sarayının qarşısındakı meydançada "Yeddi gündən" adlı canlı yayımlanan tamaşa və digər tədbirlər keçiriləcək. "Daş Salnamə" Muzeyində "Empatik sivilizasiya və paylaşım iqtisadiyyatı" mövzusunda Ceremi Rifkinin canlı videomühazirəsi, "Bahariyyə" musiqi tamaşası, "Qala" Arxeoloji-Tarixi qoruğunda Recycling Orchestranın konserti və bir-birini tamamlayan digər tədbirlər festivala qatılan hər bir iştirakçının zövqünü oxşayacaq.

Festivalın əlaqələndiricisi deyib ki, bu söz və musiqi bayramına, həmçinin dünyanın müxtəlif ölkələrindən tanınmış ifaçılar qatılacaq və onlar Azərbaycan musiqiçiləri ilə eyni səhnəni bölüşəcəklər.

Həmsöhbətimizin sözlərinə görə, festivala "Söz" layihəsi çərçivəsində Nəsimiyə həsr olunmuş şeir müsabiqəsinin qaliblərinin mükafatlandırılma mərasimi ilə yekun vurulacaq.

# Heydər Əliyev Fondunun dəstəyi ilə sahibsiz itlərlə bağlı görülən işlərin təkmilləşdirilməsinə dair layihənin icrasına başlanılıb





Sentyabrın 5-də Heydər Əliyev Fondu və Bakı Şəhər İcra Hakimiyyətinin sahibsiz itlərlə bağlı görülən işlərin təkmilləşdirilməsinə dair birgə layihəsinin təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, layihə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilir və bu sahədə işlərə may ayından etibarən başlanılıb. Layihə sakinlərin təhlükəsizliyinin təmin edilməsi, sahibsiz heyvanlara qayğı göstərilməsi, həmçinin cəmiyyətin onlara qarşı münasibətinin dəyişdirilməsi məqsədi daşıyır.



Sahibsiz itlərlə bağlı mövcud vəziyyət, problemin təsviri, layihə çərçivəsində görüləcək işlər, təkliflər, atılan addımlar barədə məlumat verən Heydər Əliyev Fondunun layihə koordinatoru Sabiq Abdullayev bildirib ki, Balaxanı qəsəbəsindəki sahibsiz itlər üçün sığınacaq mərkəzində yenidənqurma işləri həyata keçiriləcək. Burada beynəlxalq norma və tələblərə uyğun qəfəslər qurulacaq. Eyni zamanda, mərkəz müayinələrin aparılması, sterilizasiya, müalicə və heyvanlara mikroçipin yerləşdirilməsi üçün müasir tibbi avadanlıqlar və preparatlarla təchiz olunacaq.

Layihə müddətində əhalinin məlumatlandırılması məqsədilə təbliğat aksiyalarının keçirilməsi planlaşdırılır. Sosial videoçarxların, animasiya filmlərinin çəkilişi, veb-saytın yaradılması, ictimai tədbirlər, sərgilər və s. keçirilməsi nəzərdə tutulur. Bundan əlavə, problemin həllinə dair əhalinin mövqeyinin öyrənilməsi məqsədilə sosial sorğu da keçiriləcək.

S.Abdullayev sahibsiz itlərin tutulduqdan sonra mərkəzə yerləşdiriləcəyini, burada müəyyən müddət ərzində saxlanılacağını, müayinədən keçiriləcəyini, sterilizasiya və peyvənd olunacağını, onlara mikroçip yerləşdiriləcəyini də diqqətə çatdırıb. Bu mərhələlərin ardınca müəyyən müddət keçdikdən (karantindən) sonra sağlam sahibsiz itlər sərbəst buraxılacaq. Mərkəzin gələcək fəaliyyəti sahibsiz itlərlə bağlı aparılan monitorinqə əsaslanacaq. Gələcəkdə mərkəzə gün ərzində 30-dan 50-dək sahibsiz itlərin tutulub gətirilməsi planlaşdırılır. Balaxanı qəsəbəsindəki sahibsiz itlər üçün sığınacaq mərkəzində yenidənqurma işləri başlanıldığından hazırda burada olan heyvanlar müvəqqəti olaraq IDEA Heyvanlara Qayğı Mərkəzində saxlanılacaq.

Ağır yaralı, müalicələri mümkün olmayan, əhali üçün aqressiv və təhlükəli olan sahibsiz itlərin isə sivil qaydada zərərsizləşdiriləcəyi nəzərdə tutulur.

**"Yeni mərkəzdə sahibsiz itlərin sterilizasiyası və peyvəndlənməsini həyata keçirəcək baytar həkimlər, onların tutulmasını təşkil edəcək xüsusi mütəxəssislər çalışacaqlar. Mərkəzdə sahibsiz itlər üçün təcili tibbi yardım fəaliyyət göstərəcək. Həmçinin küçə itlərinin aşkar edilməsi və onlara müvafiq yardım göstərilməsi məqsədilə "Qaynar xətt" yaradılacaq. Sahibsiz itlərin ovlanması ilə məşğul olan briqada xüsusi avadanlıqlarla təmin ediləcək. Mərkəzdə peyvənd və sterilizasiya olunan itlər üçün xüsusi zonanın yaradılması nəzərdə tutulub. Buradan arzu edən hər kəs onları himayəyə götürə biləcək. Baytar həkimlər heyvanlara qayğı və peyvənd barədə onlara sahiblənən şəxslərə məlumat verəcəklər.**

**Mərkəzə daxil olan bütün itlərlə bağlı məlumatlar - tutulduğu tarix və ünvan, heyvanın vəziyyəti, həyata keçirilmiş tibbi yardımlar və mikroçipin nömrəsi xüsusi informasiya bazasına daxil ediləcək. Sərbəst buraxılan və sahiblərini tapan itlər barədə də bazaya müvafiq məlumatlar yerləşdiriləcək",** - deyə S.Abdullayev vurğulayıb.

Paytaxtda həyata keçirilən pilot layihənin gələcəkdə regionları da əhatə etməsi nəzərdə tutulur. Üç il müddətində davam etdirilməsi planlaşdırılan layihə çərçivəsində, həmçinin yeni qanunvericilik də hazırlanacaq.

Bakı Şəhər İcra Hakimiyyəti başçısı aparatının Şəhər təsərrüfatı, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Xalid Ələkbərov layihənin əhəmiyyətindən danışıb və bu sahədə öz dəstəklərini əsirgəməyəcəklərini deyib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin departament direktoru Hikmət Əlizadə pilot layihəni yüksək qiymətləndirib. O, sahibsiz itlərlə bağlı problemin humanist üsullarla həllinin vacibliyindən danışıb. Departament direktoru məsələnin həllində məişət tullantılarının idarə olunmasının əhəmiyyətini də vurğulayıb.

Sonda kütləvi informasiya vasitələri nümayəndələrinin sualları cavablandırılıb.

# İlqar Məmmədovun absurd fikirləri onun siyasi savadsızlığını və antimilli kimliyini nümayiş etdirir

*"Ana müxalifət" lideri olmaq istəyən siyasi diletant gündəmə gəlmək və "fəallıq" görüntüsü yaratmaq üçün müxtəlif manipulyasiyalarla çıxış edir*

Müstəqil xarici siyasət kursuna malik olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı strateji tərəfdaş və nüfuzlu dövlət kimi tanınır. Müstəqil siyasət yürütməsi, sivilizasiyalararası dialoqa mühüm töhfələr verməsi, regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasında əhəmiyyətli rol oynaması Azərbaycanın beynəlxalq nüfuzunu artıran mühüm strateji faktorlar kimi çıxış edir. Eyni zamanda, Azərbaycan dünya iqtisadiyyatına uğurla inteqrasiya edir və pozitiv beynəlxalq imicə malik olan suveren aktor kimi tanınır. Sabitlik adası kimi səciyyələndirilən Azərbaycan beynəlxalq miqyasda baş verən kataklizmlərə baxmayaraq, müstəqil inkişaf yolunda əmin addımlarla irəliləyir. Azərbaycanda mövcud olan sabitliyin əsasında duran başlıca faktor iqtidarın həyata keçirdiyi siyasi kursun milli maraqlara tam cavab verməsidir. Buna paralel olaraq ölkəmizdə mövcud olan xalq-iqtidar birliyi də Azərbaycanın milli gücünün artmasında təcəssüm olunur.



Azərbaycanın milli maraqlara əsaslanan müstəqil siyasət həyata keçirməsindən və milli mənafelərlə bağlı prinsipial mövqedən çıxış etməsindən narahatlıq keçirən anti-Azərbaycan dairələr isə "beşinci kolon" nümayəndələrindən istifadə etməklə ölkəmizdə sabitliyin pozulmasına və dövlətimizin müsbət beynəlxalq imicinə kölgə salmağa nail olmağa çalışırlar. Həmin "beşinci kolon" nümayəndələri anti-Azərbaycan dairələrdən aldıqları direktivlər əsasında hərəkət edərək milli maraqlara zidd mövqedə dururlar. Bu cür antimilli şəxslərdən biri də REAL-ın sədri İlqar Məmmədovdur.

İlqar Məmmədovun kimliyi, "siyasi fəaliyyət"i və mövqeyinin detalları Azərbaycan cəmiyyətinə yaxşı məlumdur. Bu şəxs faktiki olaraq "siyasi fəaliyyət"ində şəxsi mənfəətini - ambisiyalarını və anti-Azərbaycan dairələrin korporativ maraqlarını rəhbər tutmaqla öz mövqeyini və kimliyini aşkar şəkildə ortaya qoyub. Bir zamanlar AMİP-də "siyasi karyerasını inşa etməyə" çalışan İlqar Məmmədov daha sonra Soros fondunun agenti libasını geyinib və anti-Azərbaycan dairələrin siyasi sifarişlərini yerinə yetirməklə xalqımız və dövlətimizin mənafeyinə zidd mövqeyini davam etdirib. Törətdiyi cinayət əməlinə görə həbs olunmuş İlqar Məmmədov həbsdə olarkən bəzi beynəlxalq təşkilatların hətta ən kiçik çinli nümayəndələrinin də bu şəxslə bağlı çağırışlar səsləndirməsi onun anti-Azərbaycan dairələrə xidmət etməsini göstərən mühüm faktlardan biridir.

İlqar Məmmədovun bir neçə gün öncə keçirdiyi mətbuat konfransında səsləndirdiyi absurd fikirlər də onun siyasi savadsızlığını və antimilli kimliyini nümayiş etdirir. Belə ki, Azərbaycan iqtisadiyyatının dinamik inkişafından ciddi narahatlıq keçirən siyasi diletant İlqar Məmmədov həm də öz iqtisadi savadsızlığını nümayiş etdirərək qeyri-ciddi, ziddiyyətli, qərəzli və reallıqlara uyğun olmayan fikirlər səsləndirib. O, belə manipulyasiyalarla Azərbaycanın möhtəşəm nailiyyətlərinə kölgə salmağa çalışsa da, bu cür cəhdlər uğursuzdur. Çünki reallıqlar aşkardır: ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində bütün sahələrdə mühüm uğurlar əldə olunub. Ötən illər ərzində ölkəmizin valyuta ehtiyatları artıb, müxtəlif sahələri əhatə edən layihələr islahat xarakterli tədbirlər uğurla reallaşdırılıb. Təsadüfi deyil ki, ölkə iqtisadiyyatının perspektivləri ilə bağlı proqnozlar verən beynəlxalq qurumların qənaəti budur ki, ayrı-ayrı sahələrdə həyata keçirilən tədbirlər nəticəsində qarşıdakı dövrdə də Azərbaycanda dayanıqlı iqtisadi inkişaf təmin ediləcək və yeni nailiyyətlər əldə olunacaq.

REAL sədrinin Azərbaycanda hüquq sistemi ilə bağlı qərəzli və qeyri-obyektiv fikirləri də onun reallıqlardan uzaq sayıqlamalarını əks etdirir. Azərbaycanın hüquqi dövlət olduğu, ölkəmizdə hər bir şəxsin qanun qarşısında bərabərliyi, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edildiyi, ölkəmizin demokratik dəyərlərə sadiq olduğu siyasi diletant İlqar Məmmədova yaxşı bəllidir. Lakin o, milli maraqlardan uzaq mövqe tutduğuna görə bütün bu reallıqları gözardı etməyə - manipulyasiya predmetinə çevirməyə çalışır.

Əslində, İ.Məmmədovun gerçək niyyəti bəllidir. Anti-Azərbaycan dairələrin direktivlərini yerinə yetirən bu şəxs "ana müxalifət" lideri olmaq istəyir. O, "Müsavat" və AXCP-nin cəmiyyətdə heç bir etimada malik olmamasından və ciddi siyasi qüvvə kimi qəbul edilməməsindən istifadə etməklə bu istəyinə çatmaq niyyətindədir. Onun müxtəlif manipulyasiyalarla gündəmə gəlməyə çalışması və reallıqlardan uzaq sayıqlamalarla çıxış etməsi - "fəallıq" görüntüsü yaratmağa çalışması da bu məqsədə xidmət edir.

**Nurlan QƏLƏNDƏRLİ**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
www.kivdf.gov.az

# Regionlarda aqrar bölmənin gəlirli sahəsi olan üzümçülük yenidən inkişaf etdirilir

## *Yeni təsərrüfat subyektlərinin, o cümlədən də aqroparkların yaradılması kənd təsərrüfatının dinamik inkişafını şərtləndirir*



Ölkəmizdə aqrar sahənin dinamik inkişafının təmin olunması həyata keçirilən inkişaf konsepsiyasının mühüm istiqamətlərindən birini təşkil edir. Kənd təsərrüfatında davamlı inkişafa nail olmaq həm iqtisadi, həm də ciddi sosial mahiyyət kəsb edir. Belə ki, aqrar sektor ölkənin gəlirlərinin və iqtisadi inkişaf göstəricilərinin artmasına imkan verməklə yanaşı, vətəndaşların iş yerləri ilə təminat məsələlərinə və həyat səviyyəsinin yüksəlməsinə əsaslı töhfələr verir. Şübhəsiz, kənd təsərrüfatının inkişafı ölkəmiz üçün mühüm məqsədlərdən olan etibarlı ərzaq təhlükəsizliyinin təmin olunması, ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi istiqamətində həyata keçirilən siyasətin uğurlu nəticələr verməsini şərtləndirir. Bu strateji məqsədə nail olmaq üçün regionların investisiya və infrastruktur təminatı möhkəmləndirilir, meliorativ tədbirlər görməklə dövriyyəyə yeni torpaqlar cəlb edilir, fermerlərə zəruri dəstək tədbirləri görülür. Həyata keçirilən bu və ya digər tədbirlər nəticəsində respublikamızda əhalinin meyvə-tərəvəzə olan tələbatının yerli istehsal hesabına təmin olunmasının səviyyəsinin 100 faizə yüksəlməsi məmnunluq doğurur. Bundan başqa, artıq ölkəmizdə heyvandarlıq məhsulları ilə özünütəminat səviyyəsi də 100 faizə çatmaq üzrədir. Mütəxəssislərin qənaətinə görə, yeni təsərrüfat subyektlərinin, o cümlədən də aqroparkların yaradılması ölkənin ərzaq təminatının möhkəmləndirilməsinə olduqca müsbət təsir göstərəcək.

### REGİONLARDA ÜZÜM BAĞLARINDA KEÇƏN İLLƏ MÜQAYİSƏDƏ BOL MƏHSUL YETİŞDİRİLİB

Prezident İlham Əliyevin hazırda intensiv metodlara əsaslanan aqrar sektorun yaradılmasına yönələn siyasəti, həyata keçirilən dövlət dəstəyi tədbirləri öz uğurlu nəticəsini verir. Bu, kənd təsərrüfatı məhsullarının istehsalının və ixracının artmasına, özünütəminetmə səviyyəsinin yüksəlməsinə səbəb olur. Üzümçülüklə bağlı həyata keçirilən tədbirlər də bunun əyani ifadəsidir.

Məlum olduğu kimi, ölkəmizdə kənd təsərrüfatının ənənəvi sahələrindən biri üzümçülükdür. Hələ sovetlər dönəmində bu sahədə əldə olunan göstəricilərə görə Azərbaycan ittifaq miqyasında birincilər sırasında idi. Belə ki, Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə üzümçülüyün inkişafına xüsusi diqqət göstərilirdi. Bunun nəticəsi idi ki, 1984-cü ildə respublika büdcəsi gəlirlərinin 40 faizə yaxını üzümçülük və şərabçılığın hesabına təmin edilirdi. Həmin dövrdə 254 min hektar üzüm bağlarından 2 milyon 164 min ton məhsul yığılmışdı. Bu, SSRİ-də istehsal olunan üzümün 30 faizinə bərabər idi. Son dövrlərdə isə ciddi dövlət dəstəyi sayəsində üzümçülük əvvəlki şöhrətini bərpa etməkdədir.

Onu da qeyd edək ki, vaxtilə Azərbaycanda ən çox üzüm məhsulu Cəlilabad rayonunda istehsal olunurdu. Rayonda uzun müddət tənəzzül dövrünü yaşayan aqrar bölmənin bu gəlirli sahəsi yenidən inkişaf etdirilir. Bu il rayonun üzüm bağlarında keçən illə müqayisədə bol məhsul yetişdirilib. Xatırladaq ki, ötən il rayonun üzüm bağlarından 13 min ton məhsul toplanıb. Bu il isə bu rəqəmin 15 min tona çatdırılması nəzərdə tutulub.

Hazırda rayonun üzüm bağlarında əsasən daha tez yetişən süfrə üzüm növləri yığılır. Azərbaycanda üzümçülüyün inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramı çərçivəsində rayona ən müasir texnikalar, mineral gübrələr və məhsuldar üzüm növləri gətirilib. Xaricdən gətirilmiş tinglər hesabına rayonda yeni bağlar salınıb. Gətirilən üzüm növlərindən “Kardinal”, “Alfons”, “Dallas”, “Sentinial” və digərləri yerli iqlim şəraitinə uyğunlaşdırılıb. Üzümçülüklə məşğul olan fermerlər və məhsul istehsalçıları nikbindirlər. Çünki bağlarda bol məhsul yetişdirilib. Onların fikrincə, bu il üzüm bağlarında məhsuldarlıq ötən illə müqayisədə 20-25 faiz çox olacaq. Tədarük edilən üzüm məhsulu yerli bazarlarla yanaşı, xaricə də çıxarılır.

Salyanda da kütləvi üzüm yığımına start verilib. Bağlarda nümunəvi becərilmə işləri aparıldığından bol məhsul yetişib. Rayon Statistika İdarəsindən bildiriblər ki, hazırda Salyanda həyətyanı sahələrlə birlikdə 1102,5 hektar üzüm bağı mövcuddur. Bunun da 933 hektarı barverəndir. Bağlarda ilk olaraq daha tez yetişən süfrə üzümünün yığımı aparılır. Qısa müddətdə plantasiyalardan 80 tondan çox üzüm yığılıb. Toplanmış məhsul yerli bazarlarla yanaşı, xarici bazarlara da göndərilir. Təsərrüfat sahiblərinin dediyinə görə, bu il məhsul ötən illə müqayisədə 20-25 faiz çox olacaq.

Sevindirici haldır ki, salyanlı bağbanlar bu gəlirli sahəni daha da inkişaf etdirmək üçün yerli sortlarla yanaşı, xarici ölkələrdən də məhsuldar tinglər gətirib əkirlər. Ötən ildən rayonda Fransadan gətirilmiş tinglər hesabına yeni üzüm bağları da salınır. Gətirilən üzüm sortlarından “Prima”, “Dallas”, “Ora” və “Kardinal” yerli iqlim şəraitinə yaxşı uyğunlaşır və yüksək məhsul verir.

Bu il muxtar respublikanın Şərur rayonunda da üzüm bağlarının sahəsi genişləndirilib və 107 hektar sahədə üzüm bağları salınıb. Ötən ilin payızında rayonda 2 hektar sahəyə 40 min üzüm tingi əkilib. Becərilən tinglərdən bu ilin payızında yeni bağların salınması üçün istifadə ediləcək. Suya tələbatı az olan üzüm tənəklərindən yaxşı becərmə nəticəsində götürülən bol məhsuldan əldə edilən qazanc bağların artırılmasına münbit şərait yaradır.

Qeyd edək ki, “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” muxtar respublikada üzümçülüyün inkişaf etdirilməsinə və istehsalının artırılmasına, üzüm bağlarının salınmasına şərait yaradıb. Şərur üzümçüləri də bu sahənin inkişafına öz töhfələrini verməyə çalışırlar.

Şamaxıda vaxtilə üzümçülük böyük şöhrət qazanmışdı. Ötən əsrin 70-80-ci illərində Şamaxı Azərbaycanın ən böyük üzümçülük rayonlarından birinə çevrilmişdi. Sonradan Sovet İttifaqının dağılması, 90-cı illərin əvvəllərində ölkədə yaşanan gərginlik, baxımsızlıq iqtisadiyyatın digər sahələri kimi, üzümçülüyü də, demək olar ki, sıradan çıxarmışdı. Hazırda bu gəlirli sahənin bərpası və yenidən inkişaf etdirilməsi diqqət mərkəzindədir. Bu baxımdan Prezident İlham Əliyevin tapşırığı ilə hazırlanan və qəbul edilən “2012-2020-ci illərdə Azərbaycanda üzümçülüyün inkişafına dair Dövlət Proqramı” bu sahənin yenidən dirçəldilməsində mühüm rol oynayır. Bu Dövlət Proqramı üzümçülüklə məşğul olan sahibkarların fəaliyyətini də gücləndirib, yeni üzümçülük təsərrüfatlarının yaradılmasına müsbət təsir göstərib. İri aqrar rayonlardan olan Şamaxıda kənd təsərrüfatının bu sahəsinə xüsusi önəm verilir.

2017-ci ildə 40 hektardan çox, bu il isə 35 hektardan çox sahədə növbəti üzüm bağları salınıb. Gələn il daha 44 hektar sahədə yeni bağların salınması və üzüm sahələrinin 200 hektara çatdırılması nəzərdə tutulub. Üzümlüklərin 40 faizini ağ, 60 faizini isə qırmızı üzüm sortları təşkil edəcək.

### ŞAMAXILI FERMERLƏR SAHƏLƏRDƏN 2390 TON MƏHSUL GÖTÜRÜBLƏR

Yeri gəlmişkən qeyd etmək yerinə düşər ki, zəngin və bərəkətli torpaqları olan Şamaxı rayonunda üzümçülük fermerlərin üz tutduğu yeganə sahə deyil. Kartofçuluq da bölgədə ənənəvi sahələrdən biridir. İlboyu bazarlarda bu məhsula yüksək tələbat olduğundan fermerlər, eləcə də fiziki şəxslər kartof istehsalında maraqlıdırlar. Rayonda kartof yığımı başa çatıb və sahələrdən 2390 ton məhsul götürülüb. Cari ildə 353,5 hektarda məhsul yetişdirilmişdi ki, bu da ötən ildəkindən 86 hektar çoxdur. Məhsul istehsalı da keçən ilə nisbətən 619 ton artıb.

Qeyd edək ki, kartofçuluğa rayonun şimal dağlıq ərazilərində, o cümlədən bu il 79 hektar sahədən 530 ton məhsul götürülən Qızmeydanda, Hacılıda, Çuxuryurdda, Ərçimanda maraq daha böyükdür.

Zərdab rayonunda isə şəkər çuğundurу yığımına başlanılıb. Rayon İcra Hakimiyyətindən verilən məlumata görə, qısa müddətdə 378,3 ton məhsul tədarük olunub. Son illər fermerlərin təsərrüfatın bu sahəsinə marağı xeyli artıb. Təkcə cari mövsümdə bölgədə 106 hektarda şəkər çuğunduru yetişdirilib ki, bu da ötən ilki göstəricidən 3 dəfə çoxdur. Rayonun bir sıra ərazilərində, xüsusilə Gəlmə, Şıxbağı, Bəyimli, Körpükənd, Otmanobada daha çox məhsul yetişdirilib və yığımın sürətlə və itkisiz başa çatdırılması üçün ciddi səy göstərilir. Qeyd edək ki, yığılan məhsul İmişlidəki şəkər zavoduna təhvil verilir.

Ölkəmizin şimal-qərb rayonlarında isə payızlıq dənli bitkilərin səpini aparılır. Payızlıq dənlilərin səpini üçün indiyədək Qax rayonunun təsərrüfatlarında 3 min hektardan çox sahədə şum qaldırılıb. Cari mövsümdə rayonda payızlıq taxıl əkini sahələrinin 13 min hektardan çox olacağı proqnozlaşdırılır. Bu barədə rayon İcra Hakimiyyətindən məlumat verilib. Qurumdan bildiriblər ki, hazırda təsərrüfatlarda tütün yığımı da mütəşəkkil davam edir. Fermerlər indiyədək rayonda fəaliyyət göstərən tütün istehsalı və emalı məntəqəsinə 2016 ton “Virciniya” növlü yaşıl tütün təhvil veriblər. Eyni zamanda, indiyədək bu emal məntəqəsində 194 ton quru tütün istehsal olunub.

Builki mövsümdə Balakən rayonunda isə 7040 hektar qarğıdalı sahəsinin məhsulunun yığılması nəzərdə tutulur. Qarğıdalı bitkisinin əkin sahəsi ötən illə müqayisədə 155 hektar artırılıb. Artıq təsərrüfatlarda qarğıdalı yığımına start verilib. İlk olaraq Qabaqçöl ərazisindəki təsərrüfatlarda yığım aparılır. İndiyədək rayonda 1200 tona yaxın dən qarğıdalı istehsal olunub. Cari mövsümdə rayonda qarğıdalı istehsalının 44 min tona çatacağı gözlənilir.

Balakən rayon Statistika İdarəsindən verilən məlumata görə, qarğıdalı istehsalı Balakən rayonunun kənd təsərrüfatında aparıcı yerlərdən birini tutur. Mövcud təbii iqlim şəraiti rayonun qarğıdalıçılıq üzrə ixtisaslaşmasına, bu sahənin daha da inkişaf etdirilməsinə imkan verir. Bunun nəticəsidir ki, son illər balakənli fermerlərdə bu sahəyə maraq xeyli artıb. Hazırda Balakən rayonu qarğıdalı bitkisinin əkin sahəsinə və istehsal olunan məhsulun həcminə görə respublikada birincilər sırasındadır. 2017-ci ildə balakənli fermerlər 6 min 885 hektar qarğıdalı sahəsindən 43 min 152 ton məhsul əldə ediblər.

**Aqşin ŞAHİNOĞLU**

# İsrailli ekspert Arye Qut ABŞ mətbuatında dərc olunmuş məqaləni tənqid edib



Bu günlərdə ABŞ-da çıxan ermənipərəst “Asbares” qəzetində yəhudilərə və İsrailə qarşı düşmənçilik ruhunda yazılmış “Erməni diplomat İsraildə Holokost barədə sual versə, nəticəsi nə olar?” sərlövhəli məqalə dərc olunub.

Məqalənin müəllifi Ara Xaçaturyan yazır: **“Erməni xalqının faciəsi tarixi məsələdir və bu, siyasi diskussiya probleminə çevrilməməlidir. Qoy, 1915-ci ildə Osmanlı imperiyasında baş vermiş hadisələrin düzgün qiymətini tarixçilər versinlər”.**

Ötən həftə İsrail xarici işlər nazirinin müavini (əslində İsrail XİN-in Avrasiya departamentinin rəhbərinin müavini) Aleksandr Ben-Tsvi bu sözləri belə adlandırılan “Erməni soyqırımı” memorialına gedəndən sonra söyləyib.

AZƏRTAC xəbər verir ki, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert, İsraildəki “Cəmiyyət üçün beynəlxalq layihələr” qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut İsraildə çıxan nüfuzlu ingilisdilli “The Jerusalem Post” qəzetində dərc olunmuş “Amerikanın ermənipərəst mətbuatında antiisrail ruhlu növbəti məqalə” adlı materialında bu barədə yazır.

Xaçaturyan sözünə davam edərək yazır: **“Bu sözləri oxuyanda mən fikirləşdim ki, əgər Ermənistan xarici işlər nazirinin müavinlərindən biri Yerusəlimdəki Yad Vaşem - Ümumdünya Holokost qurbanlarının xatirə mərkəzinə gedəndən sonra yəhudilərin nasist Almaniyası tərəfindən sistematik şəkildə məhv edilməsinin qurbanlarının xatirəsinə ehtiramını bildirəndən sonra “Holokost” sözünü işlətməkdən imtina etməyə başlasa, nə baş verər?”**

Məqalə müəllifi qeyd edir ki, erməni KİV-lərində bu cür antiisrail ruhlu bəyanatlar çox geniş yayılıb. Arye Qut yazır: **“İsrail 1915-ci il hadisələrini rəsmən soyqırımı kimi tanımır. Bu fakt praktiki olaraq daim Ermənistanda və erməni KİV-lərində ciddi antiisrail və antisemit isteriyasına səbəb olur. Ermənilər yəhudiləri və israilliləri çox günahlar törətməkdə ittiham edirlər. Belə “günahlardan” biri də “təbii yəhudi xudbinliyi”nin təzahürü və israillilərin “soyqırımı” konsepsiyasının özünü inhisarlaşdırmaq cəhdidir. Ermənistana xatırlatmaq istərdik ki, “soyqırımı” termininin özü 1915-ci il hadisələrindən xeyli sonra yaranıb və ona heç bir aidiyyəti yoxdur”.**

Qut vurğulayır ki, məqalə müəllifinin fikrincə, qondarma “erməni soyqırımı”nın tanınması İsrail ilə Ermənistan arasında münasibətləri möhkəmlədəcək. İsrailli ekspert soruşur: **“Buna necə sakit yanaşmaq olar? Onlar bizə şərt qoyurlar ki, əgər İsrail “erməni soyqırımı”nı tanısa, Ermənistan onunla əməkdaşlıq edəcək. İsrail Knessetinin bu məsələni araşdırmasına lüzum yoxdur, çünki bu, sırf tarixi, daha dəqiq desək, elmi və mübahisəli məsələdir. Bu məsələdə aydın olmayan və ziddiyyətli məqamlar çoxdur. Burada yalan məlumatlar və saxtalaşdırmalar çoxdur. Qoy, Türkiyənin həmişə təklif etdiyi kimi, hər iki dövlət arxivləri açsın, alimlər əyləşib sənədlər və faktlar əsasında bu hadisələr barədə həqiqəti sübut etsinlər və dünyaya göstərsinlər. Məni həmişə heyrətləndirir: Əgər Ermənistan haqlıdırsa, o, nə üçün arxivlərin açılmasını istəmir, daha dəqiq desək, onları açmağa nə üçün qorxur?!”**

Arye Qut “The Jerusalem Post” qəzetində dərc olunmuş məqaləsində sual edir: **“Qoy, kimsə desin, biz qondarma “erməni soyqırımı”nı nəyin naminə tanımalıyıq - təkcə ondan ötrü ki, Ermənistan və ermənilər bizdən razı qalsınlar? Bu bizə lazım deyil. Ya da desinlər, yəhudi xalqının erməni xalqı qarşısında mənəvi öhdəliyi varmı?”**

İsrailli ekspert vurğulayıb: **“Mən soruşuram, hansı mənəvi məsuliyyətdən söhbət gedir?! Ermənistanın sabiq prezidenti Serj Sarkisyan iki il bundan əvvəl faşist və antisemit Qaregin Njdenin abidəsini rəsmən açdı. Dəhşətli Holokost cinayətlərində əli olmuş insanları milli qəhrəmanlara çevirəndə biz susmamalıyıq. Deyin, Yerevanda faşistə və antisemitə abidələr ucaldılmasına bizim münasibətimiz necə olmalıdır? Bu ölkə bəşəriyyət əleyhinə cinayətlər törətməkdə ittiham olunmuş faşist canini özünün qəhrəmanı adlandıra bilərmi? Erməni faşist və antisemit general Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi biabırçılıq və Holokost qurbanlarının xatirəsinə təhqirdir. Bundan sonra da bizdən xahiş edirlər ki, 1915-ci il faciəsini soyqırımı adlandıraq?!”**

Məqalə müəllifi vurğulayır ki, müasir Almaniya öz gənclərini nasist Almaniyanın törətdiyi dəhşətlər barədə dönə-dönə xəbərdar edir. Bu dövlətdən fərqli olaraq erməni faşistlər Dro və Njdenin ətrafında şəxsiyyətə pərəstiş yaradılması bütövlükdə müasir erməni cəmiyyətinin böyük nöqsanıdır. Arye Qut yazır: “**onların şərəfinə sikkələr zərb edilir, onlara abidələr ucaldılır, onların həyat və fəaliyyəti barədə filmlər çəkilir - guya onlar həqiqətən xalq qəhrəmanlarıdır. İkinci Dünya müharibəsi dövründə nasist Vermaxtın 20 minlik erməni legionunun törətdiyi qəddar əməlləri tarix heç vaxt unutmayacaq. Erməni faşist komandiri general Dronun rəhbərlik etdiyi ermənilər minlərlə yəhudiyə qarşı ölüm marşlarında və onların məhv olunmasında iştirak ediblər. Yəhudi xalqı İkinci Dünya müharibəsi dövründə nasist Vermaxtın 20 minlik erməni legionunun törətdiyi qəddar əməlləri heç vaxt unutmayacaq”.**

Xaçaturyan özünün antiisrail ruhlu məqaləsində daha sonra yazır: **“Mən Ermənistan XİN başçısının müavini Mnatsakanyan İsrail ilə diplomatik qalmaqala başlamasını təklif etmirəm, lakin o və digər vəzifəli şəxslər bu şəraitdə Ermənistanın fələstinlilərə silah verməsi və Holokosta hörmətsizlik göstərməsi imkanını nəzərdən keçirməlidirlər”.**

Ekspert vurğulayır ki, Ermənistan Azərbaycan ərazisinin 20 faizini - Dağlıq Qarabağı və bu bölgəyə heç bir aidiyyəti olmayan 7 ətraf rayonu işğal edib. Ermənistan bu ərazilərə iddia edir. Arye Qut yazır: **“Yeri gəlmişkən, Yaxın Şərqdən olan muzdlu silahlılar da bu işğalda Ermənistanı dəstəkləyiblər. Erməni işğalı və etnik təmizləmələr ucbatından Azərbaycan 1 milyon qaçqını qəbul etmək məcburiyyətində qalıb. Münaqişə özü və Azərbaycan ərazilərinin işğal edilməsi bütün Cənubi Qafqaz regionunda sülhə və təhlükəsizliyə təhdid mənbəyi kimi qalır.**

**Qeyd etmək lazımdır ki, İsrailin Azərbaycanla bir sıra amillərə, o cümlədən insan amilinə əsaslanan çox səmimi münasibətləri var. Avrasiyada və bütün müsəlman aləmində heç bir ölkə İsrail ilə Azərbaycan qədər sıx əlaqə saxlamır. İki ölkə arasında diplomatik münasibətlərin 26 illik tarixi ərzində bu münasibətlərin strateji əhəmiyyətini və həyat qabiliyyətini nümayiş etdirən pozitiv hadisələr çox olub. Bu ölkələr yəhudi dövləti ilə əhalisinin əksəriyyəti müsəlmanlar olan dünyəvi dövlət arasında bu cür münasibətlərin zəruriliyini və strateji əhəmiyyətini sübut ediblər. Bizim dost dövlətlərimiz həqiqi və sabit strateji tərəfdaşlar kimi hərəkət edirlər. Azərbaycanlılar və yəhudilər əslində nəinki dinc yanaşı yaşamağı, həm də həqiqi dostlar olmağı, öz münasibətlərini inkişaf etdirməyi və möhkəmlətməyi bacarırlar”.**

Ekspert vurğulayır ki, Azərbaycanda yəhudilərə heç vaxt əcnəbilər kimi baxmayıblar, yəhudi xalqı burada heç vaxt sıxıntı, təhqir, talan və antisemit xarakterli hərəkətlərlə üzləşməyib, əksinə, özünü evində olduğu kimi hiss edib.

Arye Qur İsraildə çıxan nüfuzlu ingilisdilli “The Jerusalem Post” qəzetində dərc olunmuş məqaləsinin sonunda yazır: **“Haçansa Azərbaycanda olmuş hər bir israilli təsdiq edə bilər ki, burada yaşayan yəhudilər hər hansı polis kordonundan keçmədən, rahatca sinaqoqa gedə bilər, əynində milli yəhudi geyimi, başında yəhudi papağı olduğu halda şəhərdə sakitcə gəzə bilər, halbuki hətta Qərbin inkişaf etmiş bəzi ölkələrində bu cür hərəkətlər həyat üçün təhlükəli ola bilər.**

**İsrail Dövləti Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüquq və dövlətlərin ərazi bütövlüyü prinsipi çərçivəsində nizamlamağa çağırır. Mənim fikrimcə, İsrail Cənubi Qafqazın lideri olan Azərbaycan ilə dostluğu və strateji münasibətləri daha da inkişaf etdirməli və möhkəmlətməli, hər hansı qüvvələrin bu qarşılıqlı münasibətlərə ziyan vurmasına imkan verməməlidir”.**

# Azercell Beynəlxalq İnformatika Olimpiadasında şagirdlərimizə dəstək olur

Dünyada kompüter elmi sahəsində ən nüfuzlu yarışlardan hesab olunan Beynəlxalq İnformatika Olimpiadasında ölkəmiz də təmsil olunur. Yaponiyanın Tsukuba şəhərində keçirilən 85 ölkədən 340 şagirdin qatıldığı olimpiadada ölkəmiz adından Fizika, Riyaziyyat və İnformatika təmayüllü Respublika Liseyinin IX sinif şagirdi Abutalıb Namazov, Lənkəran şəhər 4 nömrəli tam orta məktəbin IX sinif şagirdi Murad Eynizadə, Akademik Zərifə Əliyeva adına liseyin XI sinif şagirdi Ziya Muxtarov, Bakı şəhəri 27 nömrəli tam orta məktəbin XI sinif şagirdi Rəfail Səddatimov iştirak edirlər.

Korporativ Sosial Məsuliyyət strategiyasında təhsilimizin və gələcəyimiz olan uşaqların inkişafına yönəlik layihələri ilə hər zaman seçilən Azərbaycan rabitə bazarının lider mobil operatoru “Azercell Telekom” MMC bu dəfə də nüfuzlu olimpiadada şagirdlərimizin uğur qazanmasına dəstək göstərir.

Belə ki, məktəblilər olimpiadaya yola düşməzdən öncə “Azercell Telekom” MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzində xüsusi hazırlıq keçiblər. Məşğələlərdə əsas məqsəd şagirdlərin olimpiadalara hazırlıq prosesinin stimulllaşdırılması, onların elmi-yaradıcı təşəbbüslərinin artırılması, elmi potensialının nümayiş etdirilməsi üçün şəraitin yaradılması, müxtəlif müsabiqələr nəticəsində müəyyənləşdirilmiş istedadlı şagirdlərlə səmərəli hazırlığın həyata keçirilməsi olub.

2019-cu ildə Bakı şəhərində keçiriləcək Beynəlxalq İnformatika Olimpiadasında Azərbaycan məktəbliləri ilk dəfə hələ 1994-cü ildə, iştirak edib. Bu beynəlxalq tədbirdə Azərbaycan bu günə qədər 1 gümüş, 4 bürünc olmaqla 5 medal qazanıb. Beynəlxalq İnformatika Olimpiadasının keçirilməsində məqsəd kompüter bilikləri sahəsində xüsusi qabiliyyətli gəncləri tanıtmaq, informatika elminin önəmini gənclərə çatdırmaqdır.

Azercell Telekom şirkəti ölkəmizi Yaponiyada keçirilən olimpiadada təmsil edən şağirdlərimizə uğurlar arzulayır!

**İTMİŞDİR**

Paşayev İltifat Əzizağa oğlunun şəhidliyinə görə onun həyat yoldaşı Paşazadə Gülnaz Süleyman qızına verilmiş 001400 nömrəli şəhidlik vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj: 6074**

“Kapital Bank”ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**“AZƏRTAC”,**
**“Azadinform”, “SİA”**

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul:**
Aqşin ŞAHİNOĞLU